AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

2 SENTYABR 2018-ci il BAZAR № 194 (6227) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri

## Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin görüşü olub





**Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri başlayıb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Soçi şəhərindəki “Boçarov Ruçey” dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları görüşdə çıxış etdilər.

**Rusiya Prezidenti Vladimir PUTİN dedi:**

- Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

İcazə verin, Sizi Soçidə ürəkdən salamlayım. Qeyd etmək istərdim ki, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və bu da təbiidir, qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir. Biz bunu strateji tərəfdaşlıq adlandırırıq. Münasibətlərimiz həm siyasi, həm də iqtisadi istiqamətdə inkişaf edir. Keçən il qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 34 faiz, hətta 34 faizdən də çox artıb, bu ilin birinci yarısında isə mülki təyinatlı məhsulların satış həcmi 20 faiz artıb. Bu, çox yaxşı göstəricidir. Lakin təbii ki, bizim həmişə danışmağa mövzumuz var. Çox şadam ki, Siz bizim dəvətimizi qəbul edib bu gün Rusiyaya gəlmisiniz. Xoş gəlmisiniz!



**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç.

İlk növbədə, bizi Rusiyaya səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür etmək istərdim. Bizim görüşlərimizə həmişə şadam. Sizin qeyd etdiyiniz kimi, biz müntəzəm surətdə görüşürük və bu görüşlər münasibətlərimizə dinamizm gətirir. Bütün sahələrdə əlaqələrimizin inkişaf səviyyəsindən biz də məmnunuq. Münasibətlərimiz tamdəyərli, çox səmərəli şəkildə inkişaf edir, fəal siyasi dialoq xarakteri daşıyır. Siz əmtəə dövriyyəsinin artmasını qeyd etdiniz. Bu da ölkələrimizin iqtisadiyyatlarında müsbət meyillərə dəlalət edir. Bu, həm də onu göstərir ki, iqtisadi əməkdaşlığın böyük potensialı var. Əminəm ki, əmtəə dövriyyəsi qarşıdakı illərdə də artacaq. Biz enerji, nəqliyyat sahələrində əməkdaşlıq edirik.

Əlbəttə, bu gün biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri, regional problemləri də müzakirə edəcəyik. Bu gündəlik yetərincə genişdir. Əminəm ki, bizim bugünkü görüşümüz münasibətlərimizə əlavə impuls verəcək. Dəvətə görə bir daha təşəkkür edirəm.

AZƏRTAC

## Azərbaycan və Rusiya prezidentlərinin geniş tərkibdə görüşü və işçi naharı

**Sentyabrın 1-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü və işçi naharı olub.**

AZƏRTAC

## Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab Çan Day Kuanqa

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Vyetnam dostluğu və əməkdaşlığı xoş ənənələrə malikdir. İnanıram ki, ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 avqust 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 408 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası”nın və “www.azexport.az” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 408 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 5, maddə 406; 2012, N 11, maddə 1105; 2013, N 8, maddə 905, N 10, maddə 1151; 2014, N 9, maddə 1057; 2016, N 2 (II kitab), maddə 271) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 10.7-2-ci bənd əlavə edilsin:

“10.7-2. xarici ölkədə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, xarici ölkədə daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına, xarici ölkədə fəaliyyət göstərən hüquqi şəxslərə elektron imza sertifikatının verilməsini təmin edir;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 avqust 2018-ci il.**

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri

## Azərbaycan-Rusiya sənədləri imzalanıb





**Sentyabrın 1-də Soçidə geniş tərkibdə görüş və işçi nahar başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat"ı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzaladılar.

Sonra "Rosneft" Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında "Qoşadaş" blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi haqqında Saziş", "Rosneft" Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Kontrakt", "Azərbaycanda "QAZ" kommersiya avtomobilləri milli yığma istehsalının inkişafı sahəsində əməkdaşlıq haqqında Saziş", "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" Publik Hüquqi Şəxs arasında qarşılıqlı anlaşma haqqında Memorandum çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi", "Qazprombank" Səhmdar Cəmiyyəti, "Rusiya İxrac Mərkəzi" Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya Federasiyasından ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların hava nəqliyyatı ilə daşınması sahəsində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol", "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş", "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında daşınmaz əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq Proqramı" imzalandı.

**AZƏRTAC**

# Azərbaycan və Rusiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Sentyabrın 1-də sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.**

**AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, əvvəlcə Rusiya Prezidenti Vladimir Putin bəyanatla çıxış etdi.**



### Prezident Vladimir Putinin bəyanatı



- Hörmətli xanımlar və cənablar.

Yadınızdadırsa, avqustun ortalarında Azərbaycan Prezidenti İlham Əliyevlə Xəzər Sammitində iştirak edirdik. Həmin Sammitin yekununa görə, Xəzər dənizinin hüquqi statusu ilə bağlı mühüm Konvensiya imzalandı. Bu gün isə ölkəmizə səfərə gələn Azərbaycan Respublikasının Prezidentini böyük məmnuniyyətlə qəbul edirik.

Bir qədər əvvəl konstruktiv və işgüzar şəraitdə keçən danışıqlar başa çatdı. Qeyd edim ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Əminəm ki, əsas idarələrin rəhbərlərinin və biznes nümayəndələrinin iştirak etdikləri bugünkü danışıqlar bütün Rusiya-Azərbaycan əlaqələri kompleksinin gələcək inkişafına əlavə təkan verəcək. Azərbaycan Prezidenti ilə imzalanan Birgə Bəyanat, həmçinin hökumətlərarası və idarələrarası sanballı sazişlər paketi məhz buna istiqamətlənib. İlk növbədə, əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planını qeyd edirəm. Bu proqram sənədə ticarətin və qarşılıqlı sərmayələrin artırılması, nəqliyyat marşrutlarının yaradılması, eləcə də humanitar qarşılıqlı fəaliyyətin, o cümlədən mədəni və turizm mübadilələrinin genişləndirilməsi kimi mühüm məsələlər üzrə belə adlandırılan yol xəritələri daxildir.

İkitərəfli iqtisadi əlaqələrə gəlincə, onlar çox fəal inkişaf edir. 2017-ci ilin yekununa görə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə, onlardan da üçdə biri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Sahibkarlıq birlikləri arasında, o cümlədən kiçik və orta biznes xətti ilə əlaqələr genişlənir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla işləyir. Bunlar "Qazprom", "Transneft" və "Lukoyl"dur. Ümumiyyətlə, Rusiyanın və Azərbaycanın enerji sistemləri inteqrasiya rejimində fəaliyyət göstərir. Sənaye sahəsində kooperasiya dərinləşir.

İlham Heydər oğlu ilə müzakirə etdiyimiz bir neçə uğurlu birgə layihəni xatırladım. Məsələn, "KamAZ" Gəncə avtomobil zavodunda lisenziyalı yük maşınlarının buraxılmasını və onlara xidmət göstərilməsini qaydaya salıb. Rusiyanın "R-Farm" şirkəti 2019-cu ildə Azərbaycanda açılacaq dərman preparatlarının istehsalı müəssisəsinin tikintisinə 74 milyon dollar sərmayə yatırıb. "Qazprombank" Sumqayıt Kimya-Sənaye Parkının inkişafında iştirak edir. Sərmayənin həcmi təqribən 750 milyon dollar təşkil edir. Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasını ən perspektivli layihələrdən biri hesab edirik. Bu dəhliz Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yük daşımalarını xeyli sürətləndirməyə imkan verəcək. Bu arteriyanın ümumi uzunluğu 7 min kilometrdən artıqdır. Buraya dəmir yolu, bərə və avtomobil nəqliyyatı yolları daxildir. Həm də Şimal-Cənub dəhlizinin xeyli hissəsi Rusiya və Azərbaycan ərazisindən keçəcək. Qeyd edim ki, marşrutun ayrı-ayrı hissələri üzrə iş artıq aparılır. Gələn il ölkələrimiz Samur sərhəd çayı üzərindən körpünün tikintisini başa çatdırmaq niyyətindədir.

Regionlararası əməkdaşlıq mövzusunu da müzakirə etdik. Rusiya Federasiyasının 70-dən artıq subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır. Həm də onlardan 17-si ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Çərçivə sazişləri bağlayıb. Bu ilin oktyabrında növbəti regionlararası forum keçiriləcək. Bayaq müzakirə etdik ki, bu tədbir Gəncədə planlaşdırılmışdı, amma ola bilər dostlarımız bunu Bakıda təşkil etsinlər.

Mədəniyyət və təhsil sahəsində ikitərəfli əlaqələrin zənginliyini məmnunluqla qeyd etdik. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Onlardan minə yaxını Rusiya Federasiyasının Federal büdcəsi hesabına təhsil alır. Hər il Azərbaycan vətəndaşlarına 200-dən çox təqaüd verilir. Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılan Bakı Beynəlxalq Humanitar Forumunun iclasları müntəzəm keçirilir. Forumun ilin sonunda Bakıda keçiriləcək növbəti 6-cı iclasına 500-dən çox iştirakçının gələcəyi gözlənilir.

Əlbəttə ki, biz beynəlxalq və regional problemlərlə bağlı fikir mübadiləsi apardıq. Xüsusən, təbii ki, Dağlıq Qarabağ probleminə də toxunduq. Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcək.

Sonda Azərbaycan Prezidentinə, bizim bütün azərbaycanlı dostlarımıza, həmkarlarımıza məzmunlu və məhsuldar danışıqlara görə təşəkkür etmək istərdim. Əminəm ki, əldə olunmuş razılaşmalar Rusiya-Azərbaycan dostluğunun daha da möhkəmlənməsinə xidmət edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək göstərəcək. Diqqətinizə görə, təşəkkür edirəm.

**(davamı 3-cü səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri

## Azərbaycan və Rusiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

### Prezident İlham Əliyevin bəyanatı





- Hörmətli Vladimir Vladimiroviç.
Hörmətli xanımlar və cənablar.

Vladimir Vladimiroviç, ilk növbədə, Rusiyaya səfərə dəvətə, qonaqpərvərliyə, səmimi qəbula görə Sizə təşəkkürümü bildirmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son üç ayda üç dəfə görüşmüşük. Bu, üçüncü görüşümüzdür. İyunda Moskvada Futbol üzrə Dünya Çempionatı ərəfəsində, avqustda Qazaxıstanda və bu gün Soçidə görüşürük. Fürsətdən istifadə edib, Rusiyanı həmin qlobal beynəlxalq tədbiri uğurla keçirməsi, Rusiya yığmasını Dünya Çempionatında parlaq çıxışı münasibətilə bir daha təbrik etmək istərdim.

Ölkələrimizin dövlət başçıları arasında müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir. Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik. Vladimir Vladimiroviç bu gün bu barədə çox ətraflı danışdı.

Qeyd etmək istərdim ki, bizim müzakirə etdiyimiz məsələlər arasında regional təhlükəsizlik məsələləri, ilk növbədə, uzun müddət davam edən və Azərbaycan xalqının böyük iztirablarına gətirib çıxarmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi mühüm yer tutur. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış əraziləri erməni işğalı altındadır. Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Münaqişənin tezliklə həlli bizim vətəndaşlarımızın öz tarixi torpaqlarına qayıtmalarına imkan verər, həmçinin bizim regiona sülh, sabitlik və əməkdaşlıq gətirər. Rusiya, münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi tənzimləmə işində mühüm rol oynayır. Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək.

Biz iqtisadi məsələlər üzərində ətraflı dayandıq və əmtəə dövriyyəsinin artdığını, gələcək üçün böyük perspektivləri məmnuniyyətlə qeyd etdik. Bu gün müzakirə edilmiş və razılaşdırılmış məsələlər, dəqiq desək, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Keçən il əmtəə dövriyyəsinin güclü artımına baxmayaraq, artım bu ildə davam edir.

Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni, bu, özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir. Vladimir Vladimiroviç dediyi kimi, çoxlu investisiya layihələri həyata keçirilir və onların yaxşı perspektivi vardır. Bütövlükdə ticari-iqtisadi sahədə əmtəə dövriyyəsinin artmasını, inteqrasiya əlaqələrinin möhkəmlənməsini və şirkətlərimiz arasında əməkdaşlıq üçün daha yaxşı şərait yaradılmasını gözləyirik. Əlbəttə, bu işdə nəqliyyat layihələri çox mühüm rol oynayır.

Rusiya və Azərbaycan qonşu dövlətlərdir. Bizi həm dəmir yolları, həm avtomobil yolları, həm də çox fəal sərnişin və yükdaşımaları üçün hava yolları birləşdirir. Biz ölkələrimiz, eləcə də qonşularımız üçün yeni nəqliyyat imkanları yaradılması üzrə gələcək addımlarımızı ətraflı müzakirə etdik. Vladimir Vladimiroviç Şimal-Cənub layihəsinin reallaşdırılmasının vacibliyini qeyd etdi. Azərbaycan da öz tərəfindən ölkə ərazisində bu istiqamətdə bütün mühüm infrastruktur layihələrini həyata keçirib. Bu il Şimal-Cənub nəqliyyat dəhlizi ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb. Bu, hələ başlanğıcdır, çünki bu genişmiqyaslı qlobal layihə çoxsaylı ölkələri və qitələri əhatə edəcək. Beləliklə, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq.

Bu gün neft-qaz sahəsində əməkdaşlığa dair mühüm sənədlər imzalandı. Bu, bizim əməkdaşlığımızın ənənəvi sahəsidir. Çox yaxşı potensial və perspektivlər var. Vladimir Vladimiroviç Azərbaycanda bir sıra mühüm nəqliyyat, infrastruktur, sənaye layihələrinin həyata keçirilməsində Rusiya banklarının fəal iştirakını qeyd etdi. Biz bunu çox alqışlayırıq.

Bu gün biz hərbi-texniki sahədə gələcək əməkdaşlığı da müzakirə etdik. Bu əməkdaşlığın artıq böyük ənənələri var. Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Ona görə ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirir, Rusiya isə dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısıdır.

Humanitar sahədə əməkdaşlıq diskussiyalarımızda xüsusi yer tutdu. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, əsrlər boyu xalqlarımızı birləşdirmiş və bu gün də birləşdirən nə varsa, hamısına çox qayğı ilə yanaşırlar. Azərbaycanda təhsilin rus dilində olduğu 340-dan çox məktəb fəaliyyət göstərir, Rusiyanın aparıcı universitetlərinin iki filialı mövcuddur. Bu gün biz humanitar, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın möhkəmlənməsinə dair gələcək addımlarımızı müzakirə etdik, o cümlədən idman sahəsində imzalanmış sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq. Başqa sözlə, ölkələrimiz arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var. Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır.

Vladimir Vladimiroviç, dəvətə, baş tutmuş fikir mübadiləsinə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Öz növbəmdə, Sizin üçün münasib vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istərdim. Sağ olun.

**Vladimir PUTİN:** Çox sağ olun.

AZƏRTAC



## Səfər başa çatdı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri sentyabrın 1-də başa çatıb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Soçi şəhərinin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRTAC



### Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

#### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 2, maddə 98; 2009, N 2, maddə 59; 2010, N 11, maddə 968; 2012, N 11, maddə 1107; 2013, N 10, maddə 1153; 2014, N 9, maddə 1058; 2015, N 6, maddə 701; 2016, N 2 (II kitab), maddə 272; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 may tarixli 57 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 14.20-1-ci bənd əlavə edilsin:

"14.20-1. xarici ölkədə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, xarici ölkədə daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına, xarici ölkədə fəaliyyət göstərən hüquqi şəxslərə elektron imza sertifikatının verilməsini təmin edir;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 avqust 2018-ci il.**

### Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

#### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 2, maddə 125; 2017, N 2, maddə 175, N 7, maddə 1349, N 11, maddə 2016) ilə təsdiq edilmiş "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 7.22-ci bənd əlavə edilsin:

"7.22. "www.azexport.az" internet portalı vasitəsilə dövlət rüsumunun və digər ödənişlərin həyata keçirilməsi məqsədi ilə sistem portalla inteqrasiya olunur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 avqust 2018-ci il.**

### Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

#### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 may tarixli 32 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 12 (I kitab), maddə 2328; 2018, N 5, maddə 897) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 4.4.8-ci yarımbəndində "dərəcələrini" sözü "dərəcələrinin yuxarı həddini" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 avqust 2018-ci il.**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust və 1 sentyabr tarixli saylarımızda)*

### 18 avqust 2018-ci il

- **Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana:** Türkiyənin aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Sədri vəzifəsinə yenidən seçilməyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin təbriki.
- **Pakistan İslam Respublikasının Baş naziri zati-aliləri cənab İmran Xana:** Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə seçilməyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.
- **Birləşmiş Millətlər Təşkilatının Baş katibi zati-aliləri cənab Antonio Quterreşə:** Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibi, görkəmli siyasi xadim Kofi Annanın vəfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.

### 20 avqust 2018-ci il

- **Hindistan Respublikasının Prezidenti zati-aliləri cənab Ram Nat Kovində:** Hindistanda baş vermiş irimiqyaslı daşqınlar nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.
- **Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik:** Qurban bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 21 avqust 2018-ci il

- **Ukraynanın Prezidenti zati-aliləri cənab Pyotr Poroşenkoya:** Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 23 avqust 2018-ci il

- **Prezident İlham Əliyev Vyetnamın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib.**
- **Prezident İlham Əliyev Beninin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib.**
- **Prezident İlham Əliyev İslandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib.**

### 24 avqust 2018-ci il

- **Moldova Respublikasının Prezidenti zati-aliləri cənab İqor Dodona:** Moldova Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.
- **Prezident İlham Əliyev Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olub.**

### 25 avqust 2018-ci il

- **Almaniyanın Federal Kansleri Angela Merkelin Azərbaycana səfəri.**



- **Azərbaycan Prezidentinin və Almaniyanın Federal Kanslerinin geniş tərkibdə görüşü.**
- **Azərbaycan Prezidentinin və Almaniyanın Federal Kanslerinin birgə mətbuat konfransı:** Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı.
- **Prezident İlham Əliyevin Şamaxı və İsmayıllı rayonlarına səfəri:** Şamaxı rayonunda Meysəri kənd tam orta məktəbinin yeni binasının açılışı olub.
- **Prezident İlham Əliyevin Şamaxı və İsmayıllı rayonlarına səfəri:** "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışı.
- **Prezident İlham Əliyevin Şamaxı və İsmayıllı rayonlarına səfəri:** Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolu istifadəyə verilib.



- **Prezident İlham Əliyevin Şamaxı və İsmayıllı rayonlarına səfəri:** Prezident İlham Əliyev İsmayıllı rayonunda müasir heyvandarlıq kompleksinin açılışında iştirak edib.

***(davamı növbəti saylarımızda)***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadan

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ünvanına doğum günü münasibətilə Azərbaycanın və xarici ölkələrin tanınmış ictimai-siyasi, elm və təhsil xadimlərindən, ziyalılardan, sadə vətəndaşlardan çoxsaylı təbrik məktubları daxil olub. Təbrik məktublarında Birinci vitse-prezidentin müasir Azərbaycanın dövlət idarəçiliyində və inkişafında oynadığı yüksək rola böyük dəyər ifadə olunur, ölkəmizdə və onun hüdudlarından kənarda həyata keçirdiyi humanist və xeyirxah fəaliyyəti yüksək qiymətləndirilir. Təbrik məktublarında Mehriban xanıma dərin hörmət, məhəbbət, inam və etimad ifadə olunur.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva onu təbrik edənlərə müraciət ünvanlayıb. Müraciətdə deyilir:

"Əziz dostlar,

Doğum günüm münasibətilə çoxlu təbriklər almışam. Ən müxtəlif insanlar mənə səmimi arzularını, ürək sözlərini ünvanlayırlar. Tələbələr və pensiyaçılar, həmvətənlərimiz və xaricdəki dostlarımız mənə məktub yazırlar. Çox təəssüf ki, sizin hər birinizə şəxsən cavab verməyə fiziki baxımdan imkanım yoxdur. Lakin mənə ünvanladığınız səmimi sözlərə, fəaliyyətimə verdiyiniz xoş və yüksək qiymətə görə hamınıza ürəkdən təşəkkür edirəm. Hər bir təbrik mənim üçün dəyərlidir və mənə müsbət enerji verir.

Əziz dostlar,

Biz dinamik inkişaf edən dünyada yaşayırıq. Baş verən bütün dəyişikliklərə baxmayaraq insanlıq və saflıq, səmimilik və xeyirxahlıq, mərhəmət və sevgi həmişəki kimi başlıca dəyərlər olaraq qalır.

Mən sizin sevginizi və dəstəyinizi həmişə hiss etmişəm. Sizin xoş diləkləriniz mənim fəaliyyətimə verilən ən yüksək qiymətdir. Buna görə sağ olun. İnanın ki, bu, doğum günü üçün ən yaxşı hədiyyədir.



Əziz dostlar,

Diqqətinizə və səmimi təbriklərinizə görə sizin hamınıza bir daha ürəkdən təşəkkür edirəm.

Sizin hamınıza xoşbəxtlik, cansağlığı, nurlu, sevgi ilə dolu həyat, doğma Azərbaycanımıza sülh, əmin-amanlıq və firavanlıq arzu edirəm".

**AZƏRTAC**

*Müdafiə naziri:*

# Fəaliyyətimizin əsas məqsədi ərazilərimizin işğaldan azad edilməsinə hazırlıqdır



**Sentyabrın 1-də müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər vəzifəli şəxslər cəlb olunub.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ordumuz qarşısında qoyduğu tapşırıqları bir daha müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri xüsusi olaraq vurğulayıb ki, ordu quruculuğu istiqamətində görülən işlərin, həyata keçirilən tədbirlərin və ümumilikdə bütün fəaliyyətimizin əsas məqsədi ərazilərimizin işğaldan azad edilməsinə hazırlıqdır.

Qoşunlarda aparılan intensiv döyüş hazırlığı, gündəlik fəaliyyət və döyüş işinin təşkili, xidməti və döyüş fəaliyyətinin hərtərəfli təminatı, əməliyyat hazırlığı tədbirlərinin planlaşdırılması, həmçinin cəbhə bölgəsində yerləşən və qoşunların digər dislokasiya yerlərindəki cari vəziyyəti təhlil edən nazir müvafiq göstərişlər verib.

Eyni zamanda, general-polkovnik Z.Həsənov müxtəlif səviyyəli təlimlərin, planda nəzərdə tutulan digər vacib tədbirlərin təşkili və keçirilməsi, o cümlədən şəxsi heyətin, maddi-texniki vasitələrin, xüsusilə dağlıq ərazilərdə yerləşən postların və mövqelərin qış mövsümünə hazırlığının aparılması ilə bağlı tapşırıqları da müəyyən edib.

**AZƏRTAC**

*Aslan Aslanov:*

# OANA-nın sədri olaraq əsas hədəfimiz qurumun fəaliyyətini müasirləşdirməkdir

## *AZƏRTAC-ın sədrliyi ilə Tehranda Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin növbəti iclası keçiriləcək*

**AZƏRTAC 2016-cı ildən 35 ölkədən 44 agentliyin daxil olduğu Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA) rəhbərlik edir. Dünya üzrə informasiya axınının 1/3-i təşkilata üzv olan agentliklərin payına düşür. AZƏRTAC-ın sədrliyi dövründə nüfuzlu xəbər agentliklərini ətrafında birləşdirən təşkilatın fəaliyyətinin genişləndirilməsi istiqamətində addımlar atılıb, bu məqsədlə bir sıra yeniliklər edilib.**




Bu barədə OANA-nın prezidenti, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Aslan Aslanov İranın İRNA informasiya agentliyinə müsahibəsində məlumat verib. Müsahibədə OANA-nın İcraiyyə Komitəsinin sentyabrın 3-4-də Tehranda AZƏRTAC-ın sədrliyi ilə keçiriləcək 43-cü iclasında müzakirəyə çıxarılması nəzərdə tutulan məsələlərə toxunulub.

OANA-nın prezidenti qeyd edib ki, feyk xəbərlər probleminin aktuallaşdığı bir dövrdə etibarlı informasiya mənbələrinə ehtiyac xüsusilə artır. Buna görə də sədr kimi AZƏRTAC-ın məqsədi bu təşkilatın sıralarında birləşən xəbər agentliklərinin dəqiq və qərəzsiz informasiyalarını daha böyük auditoriyaya çatdırmaq, qurumun fəaliyyət dairəsini genişləndirməkdir. Bununla bağlı, ilk növbədə, OANA-nın veb-saytının təkmilləşdirilməsi istiqamətində bir sıra işlər görülüb, burada üzv agentliklərin xəbərlərinin həcminin artırılması ilə əlaqədar tədbirlər həyata keçirilib.

Müsahibədə qeyd olunur ki, Tehran iclasında AZƏRTAC-ın təşəbbüsü ilə təşkilatın idarəçiliyinin daha da gücləndirilməsi üçün təkliflər müzakirəyə çıxarılacaq. Buraya qurumun daimi baş katiblik ofisinin, Təlim Akademiyasının yaradılması, üzv agentliklərin əməkdaşları üçün treninqlərin və seminarların təşkili kimi məsələlər daxildir. "Müasir internet əsri bizdən davamlı təcrübə mübadiləsi aparmağı, yeni çağırışlara hazır olmağı tələb edir. Odur ki, OANA-nın fəaliyyətini daha da müasirləşdirmək, dövrün tələbinə uyğunlaşdırmaq qarşımızda əsas hədəf kimi dayanır. Bu və digər məsələlər Tehranda üzv agentliklərin iştirakı ilə geniş müzakirə olunacaq", - deyə OANA-nın prezidenti bildirib.

Qeyd edək ki, OANA İcraiyyə Komitəsinin Tehranda keçiriləcək iclasında Rusiyanın TASS, Türkiyənin Anadolu, Çinin Sinxua, Yaponiyanın Kyodo, Cənubi Koreyanın Yonhap və digər üzv agentliklərin rəhbərləri və nümayəndələri iştirak edəcəklər.

**AZƏRTAC**

*Hikmət Hacıyev:*

# Azərbaycan bütün tərəfdaş dövlətlərlə bərabərhüquqlu əlaqələrin qurulmasının tərəfdarıdır

**Azərbaycan öz xarici siyasətində bütün tərəfdaş və dost dövlətlərlə bərabərhüquqlu və normal əlaqələrin qurulmasının tərəfdarıdır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev TRT World kanalına müsahibəsində aparıcının Azərbaycanın Rusiya və Almaniya ilə əlaqələri və regiona artan maraqlar haqqında sualını cavablandırarkən deyib.

Rusiya və Azərbaycanın qonşu dövlətlər olduğunu və iki ölkə arasında ənənəvi dostluq əlaqələrinin hökm sürdüyünü deyən XİN-in sözçüsü iki ölkənin birgə səylər və tədbirlərlə əməkdaşlığı daha da gücləndirməyə çalışdığını vurğulayıb. Digər tərəfdən o, Azərbaycanın Avropa İttifaqından olan tərəfdaşlarla yaxından əməkdaşlıq etdiyini qeyd edərək Avropa İttifaqı və təşkilata üzv dövlətlər, o cümlədən Almaniya ilə əməkdaşlıq üzrə Azərbaycanın geniş gündəliyinin olduğunu diqqətə çatdırıb.

Dağlıq Qarabağ münaqişəsinin həlli və vasitəçilik missiyaları haqqında sualı cavablandıran Hikmət Hacıyev Cənubi Qafqaz regionunun Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən davam edən işğalından əziyyət çəkdiyini və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğunun regional sülh və təhlükəsizliyi ciddi təhdid etdiyini vurğulayıb. Münaqişənin həlli üzrə yol xəritəsinin hər kəsə aydın olduğunu və bunun beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsaslandığını deyən XİN rəsmisi bütün həmsədr ölkələrin BMT TŞ-nın qətnamələrinin tələblərinin yerinə yetirilməsi üçün səylərini artırmasının vacibliyini diqqətə çəkib. Münaqişənin həllində Almaniyanın roluna gəldikdə isə o, Almaniyanın Minsk qrupunun üzv ölkələrindən biri olduğunu bildirərək deyib: "Azərbaycanın gözləntisi ondan ibarətdir ki, Minsk qrupunun həmsədrləri ilə birlikdə Minsk qrupunda iştirak edən bütün dövlətlər fəal olaraq BMT TŞ-nın qətnamələrinin həyata keçirilməsinə dəstək olmalıdırlar". BMT TŞ-nın qətnamələrinin mahiyyətinə toxunan Hikmət Hacıyev xatırladıb ki, bu qətnamələrdə işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Yekunda XİN rəsmisi Azərbaycan xalqının 25 ildən artıq bir dövr ərzində bu münaqişədən əziyyət çəkdiyini və Azərbaycanın münaqişənin substantiv və intensiv danışıqlar yolu ilə həllini dəstəklədiyini qeyd edib.

**AZƏRTAC**

Azərbaycan Xalq Cümhuriyyəti - 100

# Cümhuriyyət dövründə mədəniyyət

Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı...

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**1918**-ci ilin 28 mayında Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini elan etdi, xalqımızın ictimai, siyasi və mədəni həyatında yeni tarixi dövrün başlanmasından soraq verdi. Həqiqətən də, əməli fəaliyyətinin 23 ayı ərzində Xalq Cümhuriyyəti ölkəmizin tarixində böyük demokratik dəyişikliklər yaratdı. "Azərbaycan Ensiklopediyası"nda deyildiyi kimi, xalq hakimiyyəti, insan hüquqları, millətlərin bərabərlik hüququ, söz və yığıncaq azadlığı kimi ictimai dəyərləri həyata keçirdi; dövlət strukturları və ordu yaratdı. Dövlət universitetini təsis etdi. Azərbaycan dili dövlət dili elan olundu, təhsil sistemi milliləşdirildi, 8 saatlıq iş gününə keçildi, vətəndaşlıq və müəssislər məclisinə seçkilər haqqında demokratik qanunlar qəbul olundu, dövlətin ərazi bütövlüyü təmin edildi (Azərbaycan Ensiklopediyası. Bakı, Elmi Mərkəz, 2007, səh. 297).

M.Ə.Rəsulzadə 1919-cu il mayın 31-də "İstiqlal" qəzetində dərc etdiyi "Həşəmətli bir gün (Müsavat məsləkinin elani-zəfəri)" məqaləsində yazırdı: Milli istiqlalın qələbəsi "Azərbaycan tarixinin ən böyük həqiqəti... o qədər xariqülədə idi ki, uyquya bənzəyirdi".

Lakin bu, tarixi həqiqət idi: Qeyri-adi sevinc oyatmış, hamını vəcdə gətirmişdi. M.Ə.Rəsulzadə istiqlalı xanın, bəyin, ağaların deyil, Azərbaycan xalqının, türk millətinin "ən müqəddəs idealları" hesab edirdi. Müstəqilliyin bərqərar olması, möhkəmlənməsi və qorunması milli fədakarlıq tələb edirdi.

Milli mədəniyyətin bütün sahələrində dirçəliş, inkişaf və yüksəliş baş vermədən müqəddəs tarixi missiyanı yerinə yetirmək mümkün olmazdı. Cümhuriyyət hökuməti bütün qüvvələri qərar və sərəncamların uğurla həyata keçirilməsinə yönəltmişdi.

Azərbaycan xalqının tarixi taleyində Cümhuriyyət dövrünün əhəmiyyəti olduqca böyükdür. Akademik Ağamusa Axundovun təbiri ilə desək, xalqımızın ictimai, siyasi, mənəvi həyatında bənzərsiz dövrün gördüyü və görmək istədiyi işlər ölkəmizə yüz illərlə nəsib olmamışdır. Xalq Cümhuriyyəti "...nəinki xalqımızın, ümumən qoca Şərqin tarixində ilk demokratik respublika, Azərbaycan Milli Şurasının elan etdiyi ilk parlamentli dövlət olmuşdur".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə milli dövlətçiliyin bərpası ölkənin ictimai-mədəni həyatında böyük dirçəlişə yol açdı. Ədəbi mühitdə, mətbuat və xalq maarifində, eləcə də mədəniyyətin bütün sahələrinin ənənəvi inkişafında özünüdərk ideyası, canlanma, yeni demokratik ab-hava yaratdı. İlk dünyəvi dövlət təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində millətlərin oyanmasına, kimliyini düşünməsinə təkan verdi.

Rusiya imperiyasının dağılması Cənubi Qafqazda, eləcə də Azərbaycanda demokratik qüvvələrin mübarizəsində dönüş yaratmışdı: yüzillik əsarət dövrü ətalət, dini-fanatizm girdabında ağır şəraitdə yaşayan əməkçi kütlələr müstəqilliyə qovuşmuşdu. Onlar mübariz, açıqfikirli vətənpərvər ziyalıların qaldırdığı üçrəngli bayraq ətrafında sıx birləşmişdi. Ölkədə baş verən ictimai-siyasi proseslərin inkişafında özünüdərk ideyasının vüsət tapmasında milli mətbuat tarixi xidmət göstərirdi.

Həsən bəy Zərdabinin milli mətbuatın təməli "Əkinçi" qəzetinin zülmət səltənətində yandırdığı milli maarifçilik məşəli zaman-zaman şölələnmiş, demokratik ənənə yaratmışdı. Ötən dövr ərzində, milli mətbuat ciddi çətinlik, ictimai-siyasi həyatın mürəkkəb ictimai təzadları şəraitində zaman keçdikcə inqilabi demokratik ənənələr zəminində pərvəriş tapmış, xalq həyatının canlı salnaməsinə çevrilmişdi.

Məlum olduğu kimi, XX yüzilliyin başlanğıcında "Həyat", "İrşad", "Açıq söz", "İnqilab" qəzetləri, "Dirilik", "Füyuzat" jurnalları milli-ictimai fikrin, azadlıq ideyalarının oyanmasında müstəsna təsirə malik olmuşdur. Dövri mətbuatda vaxtaşırı çıxış edənlər Seyid Hüseyn, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Ömər Faiq Nemanzadə, Həsən bəy Ağayev, Əhməd Cavad, Əliabbas Müznib, Hüseyn Cavid, Abdulla Şaiq və b. bu kimi ictimai xadimlər milli məfkurənin formalaşmasına yardım edirdilər. Onlar xalqın milli müstəqilliyi yolunda başlıca maneə olan rus-bolşevik və erməni-daşnak irticasına qarşı mübarizə aparırdılar.

1917-ci il inqilabı ərəfəsində Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə nəşr olunan "Açıq söz" qəzeti xalqı istiqlal uğrunda mübarizəyə səsləyirdi. Müsavat partiyasının qeyri-leqal tribunası olan "Açıq söz" qəzeti Cümhuriyyət dövrü ərəfəsində ictimai-siyasi hadisələrin aynası idi. Onun səhifələrində milli siyasi birliyə çağırış təbliğ olunurdu. Xalqı özünüdərkə hazırlayan publisist məqalələr, ədəbi-bədii əsərlər çap edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan mədəni həyatının bütün sahələrində misli görünməmiş dönüş yaratdı. Milli mətbuat ən yüksək inkişaf mərhələsinə daxil oldu. Ölkənin mədəni-inzibati mərkəzlərində Azərbaycan dilində "İstiqlal", "Azərbaycan", "Övraqi-nəfisə", "Müsəlmanlıq", "Qurtuluş", "Mədəniyyət", "Gənclər yurdu", "Şeypur", "Zənbur" qəzet və dərgiləri - İstiqlal baharının ilk aylarından çiçəkləndi. Milli İstiqlal ideyalı mətbuat demokratik respublikanın gərgin, mübarizə ilə dolu, təlatümlü və şərəfli günlərinin aynasına çevrildi.

Cümhuriyyət dövrü mətbuat böyük sınağa məruz qalmışdı. Milli müstəqilliyə, xalqın siyasi hakimiyyətinə mane olmaq üçün ölkədə hərc-mərclik, fitnə-fəsad, kütləvi soyqırım törədən irtica qüvvələrinə qarşı mübarizə, milli-siyasi birliyə çağırış, şüurları oyatmaq, maarifçilik təbliğatı milli mətbuatın başlıca mövzusu olmuşdu.

İdeya-məzmun zənginliyi ilə diqqət çəkən Cümhuriyyət dövrü mətbuatı Azərbaycanda milli-ictimai fikrin, azadlıq ideyalarının oyanışında, ümumtürk milli məfkurəsinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edirdi.

Azərbaycanda milli istiqlalın elan edilməsinə bir neçə ay qalmış milli müstəqillik siyasi məramı ilə çıxış edən "İstiqlal" qəzeti türk şairi Tofik Fikrətin şeirindən bir bənd epiqrafla oxucuların görüşünə gəlmişdi:

*Millət yoludur, haqq yoludur*
*tutduğumuz yol.*
*Ey haqq! yaşa, ey sevgili millət,*
*yaşa, var ol!*

1918-ci ilin sentyabrından nəşrə başlayan "Azərbaycan" qəzeti Xalq Cümhuriyyətinin rəsmi orqanı idi. Ona fəaliyyəti dövründə ayrı-ayrı vaxtlarda Ceyhun Hacıbəyli, Şərif bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim redaktorluq etmişlər.

"Azərbaycan" qəzetinin Gəncə şəhərində nəşr olunan ilk nömrəsində Bakının 1918-ci il sentyabrın 15-də azad edilməsi və türk hərbi hissələrinin şöhrət və şücaətinə Məhəmməd Hadinin həsr etdiyi "Türk nəğməsi" şeiri verilmişdi. "Azərbaycan" qəzetinin başlıca "məramı yenicə qurulmuş milli hökuməti müdafiə etmək" olsa da, onun səhifələrində ciddi-ictimai məzmunlu publisistik məqalələrlə yanaşı, Azərbaycan və rus dillərində dövlət qərarları, sərəncam, fərman və normativ sənədlər çap olunurdu. "Azərbaycan" qəzetinin "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Rusiyada", "Türkiyədə", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və s. rubrikaları gündəlik siyasi-ictimai, iqtisadi və mədəni hadisələrin mənzərəsini əks etdirirdi.

"Azərbaycan" qəzetində Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Məhəmməd Ağa Şahtaxtlı, Əliabbas Müznib, Əmin Abid, Şəfiqə Əfəndizadə kimi görkəmli ictimai xadimlər və publisistlər vaxtaşırı çıxış edirdilər. Onların yeni dövrün nəbzi ilə çırpınan, güclü səfərbəredici təsirə malik olan publisistik yazıları, dərin məzmunlu, taleyüklü məsələləri əks edən məqalələri vətənini və xalqını sevən geniş xalq kütlələrində milli şüurunun oyanmasına, milli özünüdərkin təşəkkülünə, azərbaycançılıq, türkçülük və islamçılıq məfkurəsinin formalaşmasına ciddi təsir göstərirdi. "Azərbaycan" qəzetinin səhifələrində Məhəmməd Hadi, Əhməd Cavad, Seyid Hüseyn, Cəfər Cabbarlı, Yusif Vəzir Çəmənzəminli kimi tanınmış şair və ədiblər vaxtaşırı dərc etdirdikləri bədii əsərlərində isə milli müstəqillik hissləri, vətən qayğısı və millət duyğusu aşılayır, hamını üçrəngli bayraq ətrafında sıx birləşməyə çağırırdılar.

Mətbuat azadlığını milli şüurun, milli mədəniyyətin inkişafı üçün mühüm amillərdən hesab edən Cümhuriyyət Hökumətinin mətbuatın və nəşriyyatların işini dövrün tələbləri səviyyəsində qurmaq üçün bir sıra qərarlar qəbul etməsi, mətbuat azadlığı, ölkədə qəzet, jurnalın kəmiyyətcə də artımına səbəb olmuşdu. Dövri nəşrlərin əksəriyyəti ölkədə baş verən ictimai-iqtisadi, siyasi hadisələri və əhalinin maraqlarını əks etdirirdi.

"Gənclər yurdu", "Əfkarı-müəllimin", "Mədəniyyət" qəzetləri səhifələrində ölkədə təhsil, elm, maarif və mədəniyyətin dirçəlişi, tələbə, müəllim və incəsənət işçilərinin həyatı, fəaliyyəti, milli nəslin yetişdirilməsinə dövlət qayğısı barədə fotoşəkillər, müsahibə, oçerk, "Ovraqi-nəfisə", "Qurtuluş" jurnallarında musiqi, teatr və memarlıq abidələri, bu mədəni sahələrdə görülən işlər, milli ruh, müasirlik ovqatı təbliğ edilirdi.

Bu dərgilərdə erməni silahlı xuntalarının törətdiyi cinayətlər, qətliam və soyqırım tutarlı dəlillərlə açılıb göstərilir, ümumxalq qəzəbi və nifrəti izhar olunurdu.

Bu dövrdə nəşr olunan "Şeypur" və "Zənbur" satirik jurnalları "Molla Nəsrəddin" ədəbi məktəbinin satira ənənələrini davam etdirir: gizli imzalarla şeir və satirik yazıları, Əzim Əzimzadənin rəngli karikaturaları ilə geriliyi, cəhaləti və dini xurafatı, istiqlal düşmənlərini kəskin tənqid edirdi.

Milli mətbuatımız Cümhuriyyət dövrünə qədərki, təxminən 50 illik keçdiyi yolda təlatümlü, çətin, qadağalarla üzləşsə də, vətənsevər maarifçi demokrat ziyalıların inadlı mübarizəsi nəticəsində inkişaf etmiş, uğurlar qazanmış, zamanın tələblərinə cavab verməyə səy göstərmişdir.

Həsən bəy Zərdabinin yandırdığı "Əkinçi" məşəli işığında pərvəriş tapan maarifçilik ideyaları 23 ayda intişar edən milli mətbuatın köməyi ilə yeni məzmun, yeni keyfiyyətlər kəsb etmiş, milli özünüdərk və azərbaycançılıq məfkurəsinin yaranmasına zəmin yaratmışdı.

Azərbaycanda ilk demokratik azad mətbuat Xalq Cümhuriyyətinin bəhrəsidir. "Əkinçi" qəzeti ənənəsini davam etdirən milli mətbuat öz inkişafının Cümhuriyyət dövrü mərhələsində misli görünməmiş yeni məzmun və keyfiyyətlərlə səciyyələnir.

Cümhuriyyət dövrü mətbuat tarixinin dərindən öyrənilməsi, elmi-tədqiqi, güman edirəm ki, mətbuat işçilərinə öz işlərini sənətkarlıq cəhətdən səriştəli, günün tələbinə uyğun qurmasında faydalı təsir göstərər.

Cümhuriyyət dövrü zəngin mətbuat irsini mənimsəmək hər bir mətbuat işçisinin borcudur.

Milli mətbuatın ən mübariz, ən şərəfli səhifəsini təşkil edən Cümhuriyyət dövrü mətbuatı Azərbaycan tarixinin mükəmməl yazılmasına, həm də onun təlatümlü ictimai-siyasi mübarizələr qaynağında azad, demokratik mətbuat kimi yaratdığı, geniş təbliğ etdiyi azərbaycançılıq məfkurəsi ənənəsini, yeni məzmun və keyfiyyətlərini öyrənməyə, davam etdirməyə imkan verər.

**(davamı növbəti saylarımızda)**

**Teymur ƏHMƏDOV.**

## SOCAR, "Qazprombank" və Rusiya İxrac Mərkəzi strateji əməkdaşlıq haqqında Saziş imzalayıb

**SOCAR, "Qazprombank" və Rusiya İxrac Mərkəzi strateji əməkdaşlıq haqqında Saziş imzalayıb.**

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində "Qazprombank" Səhmdar Cəmiyyəti, "Rusiya İxrac Mərkəzi" Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya Federasiyasından ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında Saziş" imzalanıb. Sənədi SOCAR-ın prezidenti Rövnəq Abdullayev, "Qazprombank" ASC-nin idarə heyətinin sədri Andrey Akimov və Rusiya İxrac Mərkəzinin baş direktoru Andrey Slepnyov imzalayıb.

Sazişin məqsədi SOCAR-ın həyata keçirdiyi layihələrin ehtiyaclarını qarşılamaq üçün Rusiya istehsalı olan avadanlıqların, habelə iş və xidmətlərin ixracına dəstək göstərilməsi sahəsində uzunmüddətli, səmərəli və əlverişli əməkdaşlığın inkişaf etdirilməsindən ibarətdir. Sazişə görə, "Qazprombank" tərəfindən bank xidmətlərinin göstərilməsi, habelə istehsalat obyektlərinin modernləşdirilməsi və sənaye avadanlığının satın alınması istiqamətində SOCAR-ın həyata keçirdiyi cari və investisiya fəaliyyətinin potensial maliyyələşdirilməsi də nəzərdə tutulur. Bundan əlavə, Rusiya İxrac Mərkəzi sənəd çərçivəsində Rusiya istehsalı olan avadanlığın təchizatını, habelə rusiyalı podratçıların iş və xidmətlərini maliyyələşdirən Rusiyanın kommersiya banklarına sığorta təminatının təqdim edilməsini planlaşdırır, eləcə də bu ölkənin kommersiya bankları tərəfindən verilən kreditlərin faiz dərəcəsinin subsidiya edilməsi məsələsini araşdırmağa hazır olduğunu təsdiqləyir.

"Qazprombank" ASC-nin idarə heyətinin sədri Andrey Akimov deyib: "İmzalanmış sənəd "Qazprombank" Qrupu ilə SOCAR Qrupu arasında əməkdaşlığın uzunmüddətli, strateji və əlverişli xarakter daşıdığını təsdiq edir. Artıq bu gün, "Qazprombank" Rusiya İxrac Mərkəzinə dövlət dəstəyi proqramları çərçivəsində SOCAR GPC qaz-kimya kompleksi üçün Rusiya istehsalı olan məhsul təchizatını 700 milyon ABŞ dolları həcmində maliyyələşdirilməsi imkanlarını araşdırır, bu isə "Qazprombank" Qrupunun maliyyə və texnoloji imkanlarından ən iri sənaye layihələri çərçivəsində necə istifadə olunmasının əla nümunəsidir".

**AZƏRTAC**

## SOCAR Türkiyədəki neft emalı zavoduna Rusiya neftinin təchizatı üçün "Rosneft"lə Kontrakt imzalayıb

**SOCAR Türkiyədəki "Star" neft emalı zavoduna (NEZ) Rusiya neftinin təchizatına dair "Rosneft"lə Kontrakt imzalayıb.**

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində "Rosneft" Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Kontrakt" imzalanıb. Sənədi SOCAR-ın prezidenti Rövnəq Abdullayev və "Rosneft"in baş icraçı direktoru İqor Seçin imzalayıb. Kontrakt SOCAR-ın Türkiyədəki "Star" neft emalı zavoduna Rusiya neftinin təchiz olunmasını nəzərdə tutur.

Sənəd bu il avqustun 23-də imzalanmış neft təchizatı haqqında Çərçivə Razılaşmasının şərtlərinə əsasən imzalanıb. Kontraktın şərtlərinə görə, 2018-ci ilin dekabr ayından etibarən bir il ərzində zavodun 1 milyon ton neftlə təchiz olunması planlaşdırılır.

"Star" zavodunun Rusiya nefti ilə təchiz olunmasına dair imzalanan bu kontrakt hər iki şirkətin əlverişli əməkdaşlığının genişlənməsinə dəlalət edir və SOCAR-ın Türkiyədəki yeni neftayırma obyektlərinin stabil yüklənməsi üçün təminat yaradacaq.

Qeyd edək ki, "SOCAR Turkey" şirkətinə məxsus olan "Star" neft emalı zavodu Türkiyədə İzmir şəhərinin yaxınlığında, Egey dənizinin sahilində yerləşir. "Star" neft emalı zavodunun bu ilin oktyabr ayında istismara verilməsi planlaşdırılır. Zavodun emal gücü ildə 10 milyon ton təşkil edəcək.

**AZƏRTAC**

## Gənc nəslin maarifləndirilməsində önəmli tədbirlər həyata keçirilir

**Şəmkir rayonunda Heydər Əliyev Mərkəzinin fəaliyyəti dövründə Şəmkir ədəbi mühitinin formalaşmasında böyük əhəmiyyət kəsb edən mərkəz yeni-yeni uğurlara nail olmuşdur. Şəmkir Heydər Əliyev Mərkəzinin direktoru, Milli Məclisin deputatı Sona Əliyeva ilə söhbətimiz bu barədədir.**

2013-cü ildən fəaliyyət göstərən Şəmkir Heydər Əliyev Mərkəzi artıq bu beş il ərzində rayonun ictimai-siyasi həyatında mühüm rol oynayan, cəmiyyətin inkişafına əhəmiyyətli töhfələr verəcək, xüsusilə də yetişməkdə olan gənc nəslin maarifləndirilməsində və dünyagörüşünün formalaşmasında mühüm rol oynayacaq bir sıra tədbirlərə imza atıb. Özünəməxsus memarlıq xüsusiyyəti ilə seçilən bu möhtəşəm Mərkəz özündə konfrans və təqdimat zalları, "dəyirmi masa", 17 min nüsxədən ibarət zəngin kitabxana, ulu öndər Heydər Əliyevin həyatı və çoxşaxəli fəaliyyətini əks etdirən muzey kompleksini birləşdirir.

Şəmkir Heydər Əliyev Mərkəzinin əsas fəaliyyət istiqaməti Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət və ictimai xadim, ulu öndər Heydər Əliyev irsinin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, geniş təbliğ olunması, həyatı və zəngin fəaliyyəti ilə bağlı materialları toplayıb qorumaq və elmi cəhətdən öyrənilməsini təşkil etməkdir. Belə ki, Mərkəz bir qayda olaraq ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən konfransların, simpoziumların, film nümayişləri və kitab sərgilərinin keçirilməsini prioritet istiqamət olaraq qarşısına qoyub. Eyni zamanda Şəmkir Heydər Əliyev Mərkəzinin Əsas və Elmi Köməkçi Fondunda ulu öndər Heydər Əliyevin nadir fotoları və digər eksponatlar qorunub saxlanır. Əlavə olaraq qeyd edim ki, həftənin 3 günü Şəmkir Heydər Əliyev Mərkəzi Elmi-Kütləvi Kitabxananın nəzdində fəaliyyət göstərən kinozalda Şəmkir sakinləri və rayonumuzun qonaqları üçün yerli, klassik Azərbaycan filmləri nümayiş olunur.

Şəmkir Heydər Əliyev Mərkəzinin rayonun bir sıra idarə və təşkilatları ilə imzaladığı qarşılıqlı əməkdaşlıq haqqında sazişə əsasən açıq dərslər, rəsm və kitab sərgiləri, əlamətdar günlərə həsr olunmuş bilik yarışları, müxtəlif səpkili konfranslar, məktəblilərin Mərkəzə ekskursiyaları, şair və yazıçıların yubiley tədbirləri təşkil edilir. Ardıcıl olaraq bu tədbirlərə bayram və matəm günlərinə həsr olunmuş açıq dərsləri, almanların Azərbaycanda məskunlaşmasının 200 illiyinə həsr olunmuş kitab sərgisi, kitabxana və N saylı hərbi hissənin birgə təşkilatçılığı ilə təşkil olunmuş "Xocalı qan yaddaşımızdır" adlı kitab sərgisi, ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş bilik yarışması, şəhər və kənd məktəblərinin, peşə liseyinin şagirdləri və həmçinin uşaq bağçası və körpələr evlərinin balaca fidanlarının Mərkəzə ekskursiyaları, Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə Əhməd Cavad və Mehmet Akif Ersoyun xatirəsinə həsr olunmuş VIII Beynəlxalq Şairlər Gününü, həmçinin şair, jurnalist, publisistik əsərləri ilə ölkə mətbuatında özünün dəst-xətinə görə seçilən Taleh Həmidin 65 illik yubileyini misal göstərmək olar. Şəmkir Heydər Əliyev Mərkəzində təşkil olunmuş yubiley tədbirində bir sıra rayon rəsmiləri, şairin ailə üzvləri, dostları, qələm yoldaşları və rayon ictimaiyyəti iştirak ediblər. Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinin foyesində Şəmkir Mərkəzləşmiş Kitabxana Sisteminin təşkil etdiyi şairin kitablarından ibarət sərgi ilə də tanış olmuşlar. Həmçinin, 2018-ci il "Cümhuriyyət ili" elan olunması ilə əlaqədar Mərkəzdə silsilə tədbirlər də keçirilmişdir. Bundan başqa, Şəmkir Heydər Əliyev Mərkəzi artıq beş ildir ki, nüfuzlu bir idman yarışmasına —mərhum şahmatçımız Vüqar Həşimovun xatirəsinə həsr olunmuş şahmat turnirinə ev sahibliyi edir. Hər il bir-birindən möhtəşəm və fərqli şəkildə təşkil olunan turnirdə dünyanın bir çox yerlərindən qonaqlar təşrif buyurur və bu da Şəmkir Heydər Əliyev Mərkəzinin çox böyük əhəmiyyətə malik olduğunu bir daha sübut edir.

2016-cı ildən Şəmkir Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun nəzdində Şəmkir Bilik Evi fəaliyyət göstərir. Şəmkir Bilik Evinin təşkil etdiyi dil kursları (ingilis, rus), kompüter və əl işi kurslarından çoxlu sayda insan faydalanmışdır. Həmçinin, Şəmkir Heydər Əliyev Mərkəzi 2017-ci ildən Heydər Əliyev Fondunun nəzdində fəaliyyət göstərən "Regional İnkişaf" İctimai Birliyinin regional mərkəzi seçilmişdir. "Regional İnkişaf" İctimai Birliyinin əsas məqsədi cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafına töhfə verməkdən ibarətdir.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

## Günərzi qayğı mərkəzində

*Uşaqların əl işlərinin xeyriyyə satış-sərgisi təşkil edilib*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Ağcabədi rayonunda fəaliyyət göstərən günərzi qayğı mərkəzində uşaqların əl işlərindən ibarət xeyriyyə satış-sərgisi təşkil olunub.**

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Dövlət Sosial Müdafiə Fondunun dəstəyi ilə təşkil olunan tədbir buradakı uşaqların ilkin bacarıq və qabiliyyətlərinin dəstəklənməsi, onların faydalı əməyə cəlb edilməsinin stimullaşdırılması, öz bacarıqlarının inkişaf etdirilməsi məqsədi daşıyıb. 30-a yaxın əl işinin təqdim olunduğu tədbirdə rayondakı müxtəlif qurumların, təhsil müəssisələrinin nümayəndələri, habelə ayrı-ayrı iş adamları iştirak ediblər. Təqdim olunan əl işləri, həmçinin tədbir zamanı mərkəzdəki uşaqların ifa etdikləri



mahnı və rəqslər iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Satış-sərgidən əldə olunan vəsait yeni tədris ili ərəfəsində həmin uşaqların müxtəlif məktəb ləvazimatları ilə təmin olunması üçün nəzərdə tutulub.

"İnkişaf Naminə İdman" İctimai Birliyi tərəfindən yaradılan mərkəzin fəaliyyətinin məqsədi çətin həyat şəraitində olan uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, belə uşaqların, onların ailələrinin sosial xidmətlərə çıxışının təmin edilməsidir.

**Mustafa KAMAL,**
**"Respublika".**

# KƏLBƏCƏR TƏHSİL İŞÇİLƏRİNİN İSTİRAHƏTİNİN TƏŞKİLİ DİQQƏT MƏRKƏZİNDƏ



Təhsil işçilərinin hüquqlarının qorunması, sosial təminatının yaxşılaşdırılması, müəllim və tələbələrin asudə vaxtının səmərəli təşkili, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində mühüm və ciddi addımlar atılır. Məcburi köçkün düşmüş Kəlbəcər rayonunda bu sahəyə ciddi fikir verilir. Məktəblərin maddi tədris bazası günü-gündən möhkəmlənir, zənginləşir və yeni informasiya, kommunikasiya texnologiyaları ilə təchiz olunur. Müəllim və şagirdlərin istirahət vaxtlarının və yay tətilinin səmərəli keçirilməsi daimi gündəmdə saxlanılır. Bu mədəni-kütləvi tədbirlərin keçirilməsinin gedişi barədə məlumat almaq üçün Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Kəlbəcər rayon Komitəsinin sədri **Məhiyəddin Abdurəhmanovla** həmsöhbət olduq. O, qeyd etdi ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra həmkarlar ittifaqlarının cəmiyyətdəki rolu yeni dövrün tələblərinə uyğun formalaşmağa və artmağa başladı. Həmin ağır günlərdə respublikamızı dərin siyasi və sosial-iqtisadi böhrandan çıxarmaq kimi çox çətin bir işlə məşğul olmasına baxmayaraq, ümummilli lider Heydər Əliyev həmkarlar ittifaqı təşkilatlarına da qayğısını əsirgəmədi. Onu müxtəlif siyasi qüvvələrin hücumlarından qorudu. Tarixi ənənələrə malik olan bu təşkilatın öz missiyasını yerinə yetirməsi üçün hərtərəfli şərait yaratdı. Bu qurumun uzun illər ərzində formalaşmış maddi-texniki bazasının dağıdılmasının qarşısı alındı. Demokratik idarəçilik prinsiplərinə əsaslanan AHİK-in təşkilati baxımdan möhkəmlənməsinə və fəaliyyət dairəsinin genişlənməsinə dəstək verildi. Ulu öndər Heydər Əliyevin yürütdüyü səmərəli siyasət nəticəsində qısa müddət ərzində irimiqyaslı layihələrin icrasına başlanıldı, xarici investorlar ölkəyə cəlb olundu, yeni-yeni müəssisələr fəaliyyətə başladı, minlərlə iş yerləri yaradıldı, Azərbaycanın iqtisadiyyatı yenidən quruldu.

Bu inkişaf, tərəqqi tezliklə həmkarlar ittifaqlarının fəaliyyətində də özünü göstərdi. Ümummilli liderin ölkəyə rəhbərlik etdiyi illərdə həmkarlar təşkilatlarının fəaliyyətində ciddi dönüş yarandı, bu təşkilat öz mahiyyəti üzrə fəaliyyət göstərməyə başladı. Həmkarlar təşkilatlarının fəaliyyətində demokratik prinsiplərin geniş tətbiqi həmkarlar təşkilatlarını işçilərlə rəhbərlik arasında yaranan ziddiyyətləri müəssisənin daxilində həll edə bilən özünüidarəetmə sisteminə çevirdi. Həmkarlar ittifaqlarının fəaliyyətində inzibati amirlik metodlarına son qoyuldu, sahə həmkarlar ittifaqlarının səlahiyyətləri özlərinə qaytarıldı, təşəbbüskarlığa, dünya həmkarlar ittifaqları sisteminə inteqrasiyaya yol açıldı.

Ümummilli liderimiz həmkarlar təşkilatlarının fəaliyyəti ilə bağlı qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində də misilsiz işlər gördü. Həmkarlar təşkilatlarının inkişafına təkan verən önəmli addımlardan biri 1994-cü ilin 24 fevralında "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikası Qanununun imzalanmasından ibarət oldu. Qanun digər peşə sahibləri kimi, təhsil işçilərinə də heç bir fərq qoyulmadan öz istəkləri ilə, qabaqcadan icazə almadan könüllü surətdə həmkarlar ittifaqları yaratmaq, habelə öz qanuni mənafelərini, əmək, sosial, iqtisadi hüquqlarını müdafiə etmək üçün həmkarlar ittifaqlarına daxil olmaq və həmkarlar ittifaqı fəaliyyəti ilə məşğul olmaq hüququ verdi. Həmçinin, həmkarlar ittifaqlarının dövlət orqanlarından, müəssisələrdən, siyasi partiyalardan və ictimai birliklərdən asılı olmaması, onlar qarşısında hesabat verməməsi, həmkarlar təşkilatlarının müəssisələrin rəhbərliyindən asılılığının olmaması, qanunvericilikdə bu təsisatın işinə kənar müdaxilələrin yolverilməzliyi ilə bağlı müddəanın öz əksini tapması həmkarlar təşkilatlarının təhsil işçilərinin hüquqlarının qorunması istiqamətində sərbəst fəaliyyət göstərməsinə şərait yaratdı.

Qanunun qüvvəyə minməsindən sonra bu təşkilat özünün davamlı inkişaf yoluna qədəm qoydu. Hər il əmək haqlarının artırılması, əhalinin yaşayış səviyyəsinin yüksəlməsi, həmkarlar təşkilatlarının maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində atılan addımlar tezliklə öz bəhrəsini verdi, həmkarlar təşkilatları nüfuzlu bir quruma çevrildi.

Hazırda sovet hakimiyyəti dövrü ilə müqayisədə həmkarlar təşkilatı həddindən artıq güclüdür. Ümumiyyətlə, Həmkarlar ittifaqları istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün iş yeri, peşələr, sahələr üzrə və respublika səviyyəsində fərdi üzvlük prinsipi əsasında könüllü birləşdiyi, nizamnamələri və bu Qanun əsasında fəaliyyət göstərən müstəqil ictimai, qeyri-siyasi təşkilat kimi fəaliyyət göstərir. İttifaqın fəaliyyətində könüllülük, üzvlərin bərabərliyi, şəffaflıq əsas prinsiplərdir. İttifaq öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən, müstəqil, qeyri-kommersiya və qeyri-siyasi təşkilatdır. İttifaq öz fəaliyyətini Azərbaycan Respublikası Konstitusiyasına və digər qanunvericilik aktlarına, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə, bu Nizamnaməyə, həmkarlar ittifaqının bağladığı müqavilələrə əsasən həyata keçirir. Kəlbəcər rayon komitəsi özünün 111 ilk təşkilatı ətrafında 4394 nəfər ittifaq üzvünü əhatə edir. Bunlardan 2892 nəfəri qadındır. İlk təşkilat sədrlərinin isə 40 nəfərini qadınlar təşkil edir. Tətillərdə müəllimlərin istirahətinin səmərəli keçirilməsi üçün Azərbaycanın unikal istirahət zonalarından olan Göygöl, Qəbələ, Quba, Daşkəsən, Gədəbəy, Qax, İsmayıllı rayonlarına ekskursiyalar təşkil edilir və onların böyük marağına və minnətdarlığına səbəb olur. Eyni zamanda müalicəvi sanatoriyalara - Bilgəh, Abşeron, Naftalan, Günəşli, Nabran, Lənkərana yollanışlar verilir. Təkcə bu il müraciət olunan 38 nəfərin müalicəsi üçün yollanışlar verilmişdir. Onu xüsusilə qeyd etmək lazımdır ki, hətta təqaüddə olan işçilərimizin müraciətinə uyğun olaraq, onlar da müalicə ocaqlarına göndərilir. Nabrandakı təhsil işçilərinin istirahət mərkəzi müəllimlərimizin sevimli oylağına çevrilmişdir. Rayon həmkarlar ittifaqının üzvü olan təhsil işçilərinin müraciətinə komissiyada baxılaraq onlara yardım göstərilir. Təkcə bu il 720 nəfərə 21600 manat yardım edilmişdir. Diaqnostik qiymətləndirmədə yüksək bal toplayanlar və ənənəvi olaraq ali məktəblərə yüksək balla qəbul olanlar mükafatlandırılır. Mütamadi olaraq, müəllimlərin yubileyləri təşkil olunur. Dövlət bayramları və ənənəvi "Müəllimlər günü" xüsusi coşqu ilə keçirilir. Mütəmadi olaraq hərbi hissələrə baş çəkilir, konsertlər verilir. Bu yaxınlarda ordumuzun 100 illiyi münasibəti ilə hərbi hissədə böyük bayram konserti təşkil olundu və hərbi hissəyə tezlevizor təqdim olundu. Ümumiyyətlə, şagirdlərin hərbivətənpəvərlik tərbiyəsinin aşılanması üçün maksimum mədəni-kütləvi tədbirlər keçirilməkdədir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Sığortaolunanların əməkhaqlarının maliyyəşdirilməsi

*İşəgötürənlərin bu proqramda iştirakı üçün bir sıra tələblər müəyyən olunub*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti kiçik və orta sahibkarlıq subyektlərinə müraciət edərək bildirir ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29 dekabr 2017-ci il tarixli 616 №-li qərarı ilə "Sığortaolunanların əməkhaqlarının maliyyələşdirilməsi Qaydası" təsdiq edilib. Qaydaya əsasən, işəgötürənlər Dövlət Məşğulluq Xidmətinin rayon (şəhər) Məşğulluq Mərkəzləri tərəfindən göndərilmiş işsiz vətəndaşları işə qəbul etdikləri zaman müəyyən müddət ərzində (3, 6, 9 və ya 12 ay) həmin işçilərin əməkhaqlarının bir hissəsi (50%) işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdiriləcək.**

Bu proqramda iştirak etmək istəyən işəgötürənlərin müraciət etdikləri vaxta qədər ən azı 1 il fəaliyyət müddəti olmalı və müraciət tarixinə yerinə yetirilməmiş vergi öhdəliyi, digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır. Həmçinin son 1 ildə iş yerlərinin sayını azaltmayan (ixtisar etməyən və ya ləğv etməyən), işçilərinin orta illik sayının 40 faizindən çoxunu sosial müdafiəyə xüsusi ehti-




yacı olan şəxslər təşkil edən, vakansiya bankına müvafiq məlumatları təqdim edən, kiçik və orta sahibkarlıq subyekti hesab olunan və müflis elan edilməsi barədə müraciəti olmayan işəgötürənlər proqramda iştirak edə bilərlər.

Əməkhaqlarının maliyyələşdirilməsi proqramında iştirak etmək üçün müraciət etmiş işəgötürənlər nəzərdə tutulan iş yerləri üzrə vakansiyaları ən azı 3 ay əvvəl vakansiya bankına təqdim etməlidirlər. Hər bir işəgötürən üzrə əməkhaqlarının maliyyələşdirilməsi proqramına cəlb olunacaq sığortaolunanların sayı həmin işəgötürənin işçilərinin ümumi sayının 5 faizindən çox ola bilməz. Eyni zamanda, işəgötürənlər bu proqram çərçivəsində rayon (şəhər) Məşğulluq Mərkəzinin göndərişləri əsasında işə götürdükləri işçilərlə əmək müqavilələrinə proqram başa çatdıqdan sonra ən azı 1 il ərzində (Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin ç) bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) xitam verməməlidirlər.

Proqramda iştirak etməkdə maraqlı olan işəgötürənlərin rayon (şəhər) Məşğulluq Mərkəzlərinə müraciət etmələri tövsiyə olunur.

**"Respublika".**

# "ASAN xidmət" mərkəzlərində yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanılıb

**Sentyabrın 1-dən Daxili İşlər Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanılır. Hazırda sənədlərin qəbulu Bakı şəhərinin bütün "ASAN xidmət" mərkəzlərində və Sumqayıt regional "ASAN xidmət" mərkəzində həyata keçirilir.**

Bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyib.

E.Niftəliyev bildirib ki, növbəti günlərdə regional "ASAN xidmət" mərkəzlərində də yeni nümunəli şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi üçün sənəd qəbuluna başlanılacaq. Hazırda vətəndaşlar etibarlılıq müddəti bitməmiş və qüvvədən düşməmiş şəxsiyyət vəsiqələrindən istifadə etməyə davam edə bilərlər və bu vəsiqələrin dəyişdirilməsi zəruri deyil.

Qeyd edilib ki, 15 yaşı tamam olmuş vətəndaşlara yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsi üçün müəyyən olunmuş dövlət rüsumunun məbləğində hər hansı dəyişiklik yoxdur. Belə ki, 10 gün müddətində 5 manat, 3 iş günü müddətində 25 manat, 1 iş günü müddətində isə 35 manat təşkil edir. 15 yaşı tamam olmamış vətəndaşlar üçün yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsi ilə bağlı rüsumlar tətbiq olunub. Belə ki, 10 gün müddətində 4 manat, 3 iş günü müddətində 20 manat,



1 iş günü müddətində isə 25 manat dövlət rüsumu müəyyən edilib.

E.Niftəliyev diqqətə çatdırıb ki, şəxsiyyət vəsiqələrinin etibarlılıq müddəti bitdikdə, sənəd itirildikdə, vəsiqə korlandıqda, ad, soyad, ata adı dəyişdirildikdə yeni şəxsiyyət vəsiqələrinin alınması zəruridir.

**AZƏRTAC**

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il sentyabrın 1-dək 93 milyon 412 min 236,19 manat, 213 min 577,88 ABŞ dolları, 12 min 436 avro və 5 min rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə təsis edilib. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

**AZƏRTAC**

# "KÖNÜLLÜ KÖÇÜRÜLMƏ"NİN SINMIŞ XATİRƏLƏRİ

**...O zaman taleyin qovğası onları isti yuvalarından qoparıb uzaqlara, yad yerlərin düzəngahına atmışdı. Qədərin bu oyununa yanıb-yaxılır, alt-üst olmuş həyatlarının acısını çəkirdilər. Amma çarələri nəydi ki. İnnən belə dikəlib, toparlanıb həyatlarına davam etməkdən savayı ayrı yolları qalmamışdı. Axı, çiyinlərində ay parçasıtək iki körpənin yaşaması, böyüməsi, ata-baba şəcərəsini davam etdirməsindən ötrü həyatlarını nizama salıb qayğısını çəkmək borcu vardı...**

Doğma yurdda özlərinə təzəcə ev-eşik, gün-güzəran qurmuşdular. Bir cüt göyərçin kimi baş-başa verib sabahların arzu-kamıyla yaşayırdılar. El-oba içində arxalı, ürəkli idilər... İndi gəl şirin xəyalların darmadağın olmuş yuvasını yenidən qur, məhv olmuş arzularını, ölən ümidlərini təzədən göyərt... Görəsən, yenicə köç etdikləri bu qərib yerlərdə halları necə olacaq? Düz-düzəngahda, boş çöllərdə balalarını böyüdə biləcəkdilərmi?..

1948-1953-cü illərdə "könüllü köçürülmə" adı ilə bu gənc ailəni də zorla Qərbi Azərbaycandakı ata-baba yurdlarından - doğma ocaqları, bağ-bağatları, diş göynədən buz bulaqlarından ayırıb, yurdlarının iqlimindən, sərin, təmiz abhavasından fərqli olan quraq çöllərə, aran yerlərinə qovdular. Onlar da isti yuvalarından perik düşmüş yüz minlərlə soydaşları kimi sındılar, əzildilər, korun-korun yandılar. Ah-nalələrindən təbiətin üzü bozardı. Göylərin leysanı gözlərin leysanına qarışdı... Elə bil neçə günün içində çiyinləri bükülmüş, belləri əyilmiş, qocalmışdılar. Axı hər şey ürəkdən su içir. Ər-arvadın da ürəklərinin suyu qurumuşdu. Arzu-kam qönçələri açılmamış xəzana dönmüşdü...

Köç yolunda ana kirimişcə, xısın-xısın ağlayırdı. Qorxu, təlaş, bir o qədər də nigarançılıq içində yaşyarımlıq oğlunu sinəsinə sıxıb, sanki bala təsəllisinə ovunmaq istəyirdi. Ata da, "biz hara gedirik, təzə evimiz hardadı" deyib, elə hey üstünə suallar yağdıran qızına nağıllar danışırdı. Üç yaşlı qızcığazı şirin sözlər, vədlərlə sakitləşdirməyə nə vardı ki! Dərd, elliklə gələn bəlaya, müsibətə dözüb-dayanmaqdı...

Fatma uşaq fəhmilə valideynlərinin qəmini, kədərini duydu, anasının gözündəki yaşın avazımış yanaqlarında cığır açdığını gördü. İşıq təki çöhrəsinə saçılmış sevincin bircə işartısını da böyüklərin üz-gözündə görmədiyindən sanki qaynarlığından düşdü. Bayaqdan dil-dil ötən qızcığaz kiridi, iri ala gözlərindəki işıq da öləzidi, tər gül ləçəyinə bənzər dodaqları büzüldü, doluxsunmuş, qəmgin halda atasının böyrünə qısıldı...

Beləcə, bu ailə də çiliklənmiş həyatlarını təzədən öz axarına salmaqdan ötrü düşdükləri diyarda özlərinə ev-eşik qurmaq qayğısı ilə uğraşdılar. Həmin o evi də ilan mələyən Mil düzündə neçə min il əvvəl monqolların işğalından yerlə-yeksan olmuş qədim Beyləqan şəhərinin yerində qaralan komaların arasında, ömrün yaşıl çağlarında çiyin-çiyinə verərək, palçığına gözlərinin yaşını, ürəklərinin olan-qalan təpərini qataraq tikmişdilər. Bu, 1950-ci il idi...

O ikimərtəbəli kərpic evdə yeni körpələr dünyaya gəldi. O ev bizim doğma evimiz oldu. Ailədə dörd qız, bir oğlan qol-qanad açdıq. O evdə cəfakeş valideynlərimizin qayğısı, tərbiyəsi ilə böyüdük. Vətən deyib, doğulduğumuz evə, yerimizə, yurdumuza bağlandıq. Gələcəyə hazırlandıq, həyatı gələ-gələ duyduq, görə-görə öyrəndik, seçdiyimiz ali məktəblərdə sevdiyimiz ixtisaslar üzrə təhsil aldıq. Çəkdiyimiz zəhmətlər də hədər olmadı, cəmiyyətdə öz yerimizi tutduq. Sonralar ən böyük sevincimiz, hərəmiz bir yana pərvazlanandan sonra bir müddət tez-tez ocağımızın başına yığışdığımız günlər oldu...

Biz maarif işığının günəş təki təzəcə çırtlayan şöləsini də evimizdə gördük. İlk olaraq valideynlərimizin məktəbini keçdik, onlardan dərs aldıq. Atam Azərbaycan dili və ədəbiyyat müəllimi kimi peşəsinin vurğunu, fədaisi idi. Onu bütün şagirdləri, rayon camaatı çox sevirdi. Anam da ibtidai sinif müəllimi kimi öz işinin, təlim-tərbiyə metodunun ustadı kimi bu balaca məskəndə hörmət-izzət qazanmışdı. Onlar övladlarını el-obaya, vətənə layiq vətəndaş kimi böyütdülər. Amma nə qədər qayğılarla yüklənib başları iş-gücə qarışdısa da, yaddaşın ağrısı onlara nəfəs dərməyə aman vermədi, gözlərinin qüssəsi çəkilmədi, qəlblərinin köçkünlük yarası bağlanmadı. Ömürləri boyu için-için sızladılar, doğma yerlərinə sarı boylana-boylana qaldılar. Qəlbi uşaqlarının gələcəyindən ötrü böyük arzularla çağlayan atam aran yerinin iqliminə dözə bilmədi, ürəyi xəstəlik tapdı, əlimizin çörəyə çatdığını görmədi. 47 yaşında dünyasını dəyişdi...

Həmin o "könüllü köçürülmə" illərində doğma ocaqlarından didərgin olan minlərlə insanlar düşdükləri ərazilərdə olmazın əzab-əziyyətlərini yaşadılar. İqliminə uyğunlaşa bilməyib, dözüş gətirməyənlərin son mənzilə yolu yaxın oldu. Qalanlar dişnən-dırnaqnan özlərinə yuva qurdular. Halal zəhmətlə ailə, külfət qayğısı çəkdilər. Xəyallarında isə elə hey doğma yerlərə sarı qanadlandılar. İllər boyu ürəklərində gəzdirdikləri didərginlik yükünün ağırlığı altında yana-yana yaşadılar. Deme, itkilərin ən ağırı yurd itkisiymiş...

Valideynlərimizin başlarının üstündə tavanları olsun deyə, tikdikləri o kərpic ev bizdən ötrü vətən oldu. Orda beşiyimiz yırğalandı, anamızın şirin laylasıyla rahatlandıq, böyüdük. Ayağımız yer tutan kimi vətənin qapısından həyətə, bağ-bağata yüyürdük. Biz boy atdıqca vətənimiz də böyüdü, böyüdü, Azərbaycan adlı məmləkət oldu...

Ata evindən uzaqda, Bakıda yaşasam da onu bir an belə unutmadım. Unuda bilmədiyim, daim ruhumda, düşüncəmdə gəzdirdiyim o ev mənim doğma evimdi... Arzularım bu evdə qönçə tutub, puçurlanıb, ləçək-ləçək açılıb, pardaqlanıb. Hələ məktəbli çağlarımda "Şəfəq Səma" imzası ilə rayon qəzetində dərc olunmuş ilk şeirimi, miniatürlərimi - "Anam haqqında nağmə"ni, "Mənim sevincim"i, "Ulduzlu gecənin romantikası"nı, "Bir cüt qızılgül"ü, "Ulduzlar"ı o evin kərpic divarları arasında yazmışdım. Qəlbimin aynasından süzülən bütün istəklərimin ətrini həmin kərpic evin divarları arasında duymuşdum. Sonralar bütün şüurum, ruhumla bağlandığım bədii, publisist yaradıcılığımın mayası olan bu yazılar mənə yeniyetmə dövrümün ən qiymətli xatirələri oldu. Məndən ötrü şah saraylarından da yaraşıqlı, möhtəşəm olan o kərpic evdə yaşadığım günlərin, ayların yaddaşımda yer aldığı xatirələr vaxt-bivaxt qəlbimi közərdir, ruhumu alışdırır...

Evimiz neçə onilliklər ərzində sel-sulardan uçmadı, yeri-göyü yandıran istilərdən alışmadı, baş verən yeraltı təkanlara, zəlzələyə yıxılmadı, bizə sədaqətini qorudu. Bunlardan hansınınsa evimizi yıxa biləcəyini düşünəndə ürəyim əsir, varlığımı soyuq bir titrəyiş sarır: kərpiclər uçub-tökülsə, xatirələrimiz harda gecələyər... Xatirələrin yuvasını dağılmış görmək, gerçək olanları itirmək yaman ağırdı...

Ötən mayın güllü-çiçəkli bir günündə Beyləqana yol aldım, ata ocağına gəldim. Həyət darvazasından içəri keçər-keçməz ayaqlarım əsdi, qollarım boşaldı... Göz gördüklərindən, ürək duyduqlarından ağrıdı. Həyətimizdəki meyvə ağaclarının sırası seyrəlmiş, quruyanı qurumuş, qalanları sınıq-salxaq görkəmdəydi. Qızılgül kollarının üstündə yarıaçıla butalar başlarını əymiş, vaxtsız solub-ölüşkəmişdilər. Amma həmişə təbiətin bu çağında bağ-bağçamız, evimizin dörd yanı gülüstana dönər, ətrindən bihuş olardıq... Hələ evimiz - arzularımızın böyüdüyü, sıx-sıx xatirələrimizin divarlarında nəqşlər saldığı evimiz əldən düşmüş, yaşamağa taqəti qalmamış kimi yorğun-yorğun mürgüləyirdi...

Evimiz yaman qocalmışdı. Kərpiclər elə bil sıxılıb-yeyilib, yastılanmışdı. İndiki imarətlərin yanında lap cırtdan evlərə oxşayırdı. Evimiz indiki kimi mənə bapbalaca görünməmişdi. Onu belə sakit, küskün də görməmişdim. Bu mənzərə qəlbimi sıxdığından evə keçməyə ürək eləmirdim. Elə bilirdim kandarından içəriyə ayaq qoysam, kərpiclər başıma uçacaq. Vəfasızlığıma, onu tənha buraxdığıma, divarlarına, tavanına istimizi, səsimizi həsrət qoyduğumuza görə məni, elə qardaş-bacılarımı da ömrünün sonunacan bağışlamayacaq... Qəhərimi boğaraq astadan, qəmgin bir səslə pıçıldadım: Atamsan, anamsan, qardaş-bacımsan, ən qiymətli xatirəm, varidatımsan...

O müqəddəs ocağı, evimizlə bərabər uşaqlığımı, qızılgüllü bağçamı, ulduzlu gecələrimin romantikasını, atalı-analı günlərimi uçurub getmişdim. Nə az, nə çox, 45 il əvvəl tərk etdiyim ata ocağıma tələbəlik çağlarında, sonrakı illərdə ara-sıra, qısa vaxtda baş çəksəm də ona əvvəlki istiliyimi verə bilmədim. İndi o vaxtdan tavanında, divarlarında xatirələrimiz mürgüləyən o evdən bir quruca eksponat qalmışdı: qocalıb əldən düşmüş bir ev, bizim doğma evimiz ...

O evin kərpicləri göz yaşıyla tikilmiş, divarları qəm-kədərlə suvanmışdı. Bəlkə də yurd həsrətinin acısı olan o göz yaşlarının, qəm-kədərin ağrısı onu illərcə yorub yorğun salmışdı. Sıxılıb yeyilmiş kərpic evimiz məndən utanırmış kimi elə bil büzüşüb başını aşağı salmışdı. İstədi qəddini dikəltsin, bacarmadı, görkəmindən, təhər-tövründən xəcalət çəkirmiş kimi sanki özünü gizlətməyə çalışdı. Amma küskünlüyünü də örtbasdır edə bilmədi. Gileyini beli əyilmiş damından, şuxluğunu, taqətini itirmiş, qocalmış qapısından, pəncərəsindən, solub-soluxmuş divarlarından oxudum: "Bağışlayın ki, gözünüzdəki əzəmətimi saxlaya bilmədim. Gəlmirsiniz, getmirsiniz, başımın üstündə damım, kərpic kürəklərim həsrətdən ovxalanıb tökülür. Hamınız bir-bir atıb getdiniz məni. İçimdəki xiffətimə, göynərtimə dözüş gətirən, bircə o xurmayı tellərini illər içrə ağardan qardaşınız oldu. Mən dilsiz-ağızsız, o da dinməz-söyləməz, axşam-sabah "dil-dil ötürük". Elə hey keçmişlərdən danışırıq, o günlərin xiffətindən baş-başa verib, xısın-xısın ağlayırıq...".

Həmin anlarda düşündüm ki, ürəyimi sıxan bu mənzərənin yaranmasına biz hamımız günahkarıq. İş-gücü, "başımızdan tökülən" qayğıları bəhanə gətirib, bizi pərvazlandıran bu ocaqdan ayrı düşmüş, doğmamızı atıb getmişdik. Bu səbəbdən də əzizlərinin qayğısına, əllərinin sığalına, baxışlarının istisinə həsrət qalan bu evi, bu bağça-bağı sanki küsnət basmışdı... Bir təsəllim var: hələ ki, xatirələrimizin yuvası yaşayır. Hələ ki... və nə qədər ki...

Bakıya yol almışam, ruhum isə orda, evimizdə qalıb. Arxamca xırıltılı, qaltanlı səslə için-için ağlayan o ev bizim evimizdi... O səs yandırıb-yaxır, göynədir məni. Həmin ovqatın qapqara tüstüsü, dumanı içində Əhməd Qüdsi Tecərin yaddaşımı ağrıdan misraları qəlbimi köz-köz edir, sızladır məni...

*...Orda bir ev var, uzaqda*
*...Yatmasaq da, qalxmasaq da*
*O ev bizim evimizdi...*

**Şəfəq NASİR.**
**"Respublika".**

# Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı şəhər ağsaqqalları ilə görüşüb və vətəndaşlarla ilk qəbulunu keçirib



**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsinə Bayramov Niyazi Müzəffər oğlu təyin olunmuş və Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri Zeynal Nağdəliyev tərəfindən Gəncə ictimaiyyətinə təqdim olunmuşdur.**

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov ilk görüşünü Gəncənin elm, səhiyyə, mədəniyyət, idman və digər sahələri təmsil edən 50-yə yaxın ağsaqqaları, ziyalıları ilə keçirmişdir. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı ağsaqqaları böyük səmimiyyətlə salamlayaraq, vaxt ayırıb görüşə gəldikləri üçün onlara təşəkkürünü bildirmişdir. O qeyd etmişdir ki, tarixən mədəniyyət beşiyi sayılan qədim Şeyx Nizami yurdu Gəncə həm də ziyalılar şəhəridir. "Bu görüşü təşkil etməkdə əsas məqsədim, ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ağsaqqaların fikirlərini öyrənmək, şəhərdə olan problemlər barədə məlumat almaq, onların həlli istiqamətində təkliflərinizi dinləməkdir. Bu baxımdan sizin dəstəyinizə ümid edirəm", - deyə şəhər rəhbəri Niyazi Bayramov bildirmişdir.

Səmimi görüşdə AMEA Gəncə bölməsinin akademik-katibi Fuad Əliyev, ADAU-nun rektoru professor İbrahim Cəfərov, GDU-nun rektoru professor Yusif Yusibov, ATU-nun rektoru professor Akif Süleymanov, GDU-nun prorektoru Gülsüm Fətəliyeva, Gəncə şəhər Veteranlar təşkilatının sədri Yusif Məmmədov, Böyük Vətən müharibəsi veteranı Tofiq Hüseynov, Ağsaqqallar Şurası Gəncə şəhər Təşkilatının sədri Xalid Qurbanov, Gəncə Dövlət Dram Teatrının rejissoru Vaqif Şərifov və digərləri çıxış edərək, Gəncə şəhərinə yeni təyin olunan İcra Hakimiyyəti başçısına işlərində yeni-yeni nailiyyətlər və uğurlar arzulamışlar. Bildirilmişdir ki, Gəncə və gəncəlilər hər zaman dövlətçiliyə sədaqətli olmuş, xalq və dövlət birliyini ən ümdə hesab etmişlər. Tam əminliklə demək olar ki, qədirbilən gəncəlilər bundan sonra da Gəncənin inkişafı və tərəqqisi üçün var qüvvələri ilə çalışacaq, şəhər rəhbərinə dəstək olacaqlar. Eyni zamanda çıxışlarda həlli vacib hesab olunan məsələlər diqqətə çatdırılmış, bir sıra təkliflər səsləndirilmişdir.

Nəzərinizə çatdırmaq istərdik ki, Bayramov Niyazi Müzəffər oğlu 2012-ci ildən indiyə qədər Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmış, şəhərin inkişafına və tərəqqisinə böyük töhfələr vermişdir.

* * *

Ölkə Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq vətəndaşlara qayğı və diqqət gündən-günə artırılır, onların Konstitusiya hüquqlarını daha yaxşı təmin etmək üçün müstəqillik illərində formalaşmış qanunvericilik bazası mütəmadi təkmilləşdirilir. Azərbaycan xalqının rifahının artırılmasına və ölkəmizin qüdrətinin yüksəlməsinə yönəlmiş çoxşaxəli tədbirlərin tərkib hissəsi olaraq, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu qanunvericiliyin təkmilləşdirilməsinin, insanların hüquq və azadlıqlarının təmin edilməsinin bariz nümunəsidir. Bu baxımdan ölkə Prezident cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, bütün şəhər və rayon icra hakimiyyətlərində vətəndaşların müraciətlərinə baxılması və sakinlərin həyat səviyyəsinin yüksəldilməsi, insanların problemlərinin həlli prioritet məsələlərdəndir. Məhz bu baxımdan Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı təyin olunduğu ilk gündən vətəndaş qəbulunu əsas məsələ hesab etmiş və ilk qəbulunu keçirmişdir. Qəbulda 45-ə yaxın Gəncə sakininin şikayət və təklifləri dinlənilmişdir. Müraciətlər arasında işlə təminat, vətəndaşlara torpaq sahələrinin verilməsi, qəzalı vəziyyətdə olan binaların təmiri, dam örtüklərinin dəyişdirilməsi kimi məsələlər üstünlük təşkil etmişdir.



Həmçinin fərdi məşğulluq layihəsinin dəstəklənməsi, əlillik statusunun alınması ilə bağlı da müraciət edənlər olmuşdur. Bir çox məsələlər yerindəcə öz həllini tapmış, digər problemlərin araşdırılaraq aradan qaldırılması üçün aidiyyəti qurum və şəxslərə müvafiq tapşırıqlar verilmişdir. Şəhər rəhbərinin vətəndaşlarla bu ilk görüşü məmnunluq, razılıq, sevinc və fərəh dolu məqamlarla yadda qalmışdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Aqrar sektorda fermerlərin rolu artır

**Ölkəmizin aqrar sektorunda fermerlərin rolu getdikcə artır, onlar bu sahədə əsas simaya çevrilirlər. Fermerlərin inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, onlar tərəfindən innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastrukturun tətbiq edilməsi, mövcud problemlərin həlli ilə bağlı koordinasiyalı qərarların hazırlanmasına ciddi ehtiyac vardır. Zaman yeni təsərrüfatçılıq formalarını diktə edir. Kənd təsərrüfatı kooperativlərinin yaradılması fermerlərin inkişafı üçün atılan yeni bir addım olacaqdır. Kəndlərdə yeni təşkil olunmuş Fermerlər Şurası da bu məsələlərin həllinə xidmət edir.**



Digər yerlərdə olduğu kimi, Xaçmaz rayonunda da 27 inzibati ərazi dairəsində Fermerlər Şurası fəaliyyətə başlamışdır. Bu günlərdə Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzində Fermerlər Şurası ilə görüş-yığıncaq keçirilmişdir. Yığıncağı giriş sözü ilə **Xaçmaz DAİM-in direktoru Azər Haqverdiyev** açaraq yeni yaradılan şuranın məqsəd və vəzifələrindən danışmışdır. O qeyd etmişdir ki, istehsalçıların yerdə qarşılaşdıqları problemlərin daha operativ və əsaslı surətdə əlaqədar qurumlar qarşısında qaldırılmasında şura üzvləri çox iş görə bilər. Biz şura üzvlərinə yaxından kömək göstərməklə qaldırılan məsələlərin və verilən təkliflərin əməli şəkildə həyata keçirilməsinə çalışmalıyıq. Direktor həmçinin qeyd etmişdir ki, bu gün biz işimizi daha çox yerlərdə qurmalı və hər zaman fermerlərin yanında olmalıyıq. Yeni yaradılan şuranın üzvləri ilə sırf təmasda işləməklə hər bir istehsalçının qayğı və problemlərinə həssaslıqla yanaşmalıyıq.

Sonra yığıncaq şura üzvlərinin fəallığı ilə müzakirə-diskussiya şəklində davam etmiş, təkliflər dinlənilmişdir. **Dədəli kəndində Fermerlər Şurasının üzvü Abdulrəhim Yaqubov** çıxışında bildirmişdir ki, Fermerlər Şurası kənd təsərrüfatı istehsalçılarının yaxın köməkçisi və onların sözünü yuxarı təşkilatlara vaxtında çatdıra bilən bir təşkilat olmalıdır. Mənim yaşadığım Dədəli inzibati ərazi dairəsində şura 7 kəndin fermer və ailə təsərrüfatlarını əhatə edir. Biz səylərimizi bu şura vasitəsilə birləşdirməli, problemləri birgə həll etməliyik. Bu kooperativlər şəklində fəaliyyət göstərmək daha məqsədə uyğun olardı. Belə olarsa həm texnika, həm gübrələrin alınması, sudan istifadə və digər aqrotexniki tədbirlərin həyata keçirilməsi həm asan olar, həm də qanaətli. Kooperativlər yaranarsa hazır məhsulun tədarükündə, daxili və xarici bazara çıxarılmasında da o qədər çətinliyimiz olmaz.

**Susay qışlaq kəndindən olan təsərrüfatçı, şura üzvü Mirzə Şahbazov, Xaspolad kəndindən olan Polad Bədəlov, Arzu kəndindən şura üzvü Camal Allahyarov, Müşkür kənd fermerlər şurasının sədri Əmrəddin Cabbarov** və başqaları çıxış edərək suvarma suyu olmayan ərazilərdə su anbarlarının yaradılması, mineral gübrələrin lizinq yolu ilə gətirilib satışının təşkil olunması, kol-kos basmış kənd təsərrüfatına yararlı torpaq sahələrindən istifadə olunması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığının alınması və s. kimi məsələlər qaldırdılar. Yığıncaqda həmçinin təklif olundu ki, belə görüşlər şura üzvlərinin iştirakı ilə kəndlərdə təşkil olunsun. Görüş zamanı şura üzvlərini maraqlandıran bir sıra suallara aydınlıq gətirildi. Qərara alındı ki, növbə ilə hər dəfə bir ərazidə Fermerlər Şurasının yığıncağı keçirilsin.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# Yeni dərs ilinə yeni uğurlarla

**Yeni dərs ilinin başlanmasına sayılı günlər qalmışdır. Respublikanın bütün tədris müəssisələrində bu əlamətdar günə ciddi hazırlıq işləri aparılır. Ali və orta ixtisas məktəblərində tələbə adını qazanmışların qeydiyyatı başa çatmışdır. Tədris müəssisələrində tələbata uyğun cari və ya əsaslı təmir işləri başa çatmaq üzrədir.**

Aran Qarabağın böyük rayonlarından olan Bərdə rayonunda da bu işlər mütəşəkkil qaydada həyata keçirilir. Bu günlərdə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinə yollandıq. Kollecin həyətinə qədəm basdıqda xüsusi səliqə-sahmanın şahidi olduq. Həyətdə cürbəcür ağac və gül kolları əkilmiş, onlara xüsusi aqrotexniki qulluq göstərilir ki, bu da füsunkar bir gözəllik yaradır. Bizi **kollecin direktoru Texnika üzrə fəlsəfə doktoru Xaləddin Ələkbərov** səmimiyyətlə qarşıladı. Söhbət zamanı direktor bildirdi ki, bu təhsil müəssisəsinin yaranmasının xüsusi tarixçəsi var. Məlum olduğu kimi 1970-ci illərin əvvəllərində ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbər təyinatından sonra bütün sahələrdə həyat tam dəyişərək ölkənin hər yerində sürətli inkişaf dövrü başladı. Sözsüz ki, bu tərəqqi Bərdə rayonunda daha çox hiss olundu. Belə ki, ümummilli liderin hər il Bərdəyə səfəri rayonda bütün sahələrin, o cümlədən gəlirli sahə olan pambıqçılığın inkişafını sürətləndirdi. O dövrdə Bərdə rayonu pambıq istehsalında qabaqcıl yerləri tuturdu. Məhz 1978-ci idə rayonda bu sahənin daha da inkişaf etdirilməsi üçün xalqımızın xilaskarı Heydər Əliyevin təşəbbüsü və xeyirduası ilə Bərdə Pambıqçılıq Texnikumu yaradıldı. Bunun nəticəsi idi ki, pambıqçılığın yüksək təşəkkül tapdığı Aran Qarabağda pambıq tədarükündə inanılmaz nəticələr əldə olundu.

Bu gün qeyd etdiyimiz təhsil ocağı Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci adı altında fəaliyyətini uğurla davam etdirir. Hazırda kollecdə tələbələr 7 ixtisas, baytarlıq, kənd təsərrüfatının mexanikləşdirilməsi, aqrar (fermer) təsərrüfatının təşkili, mühasibat uçotu, nəqliyyatda daşınmaların təşkili, nəqliyyat vasitələrinin texniki istismarı və poçt rabitəsi üzrə 453 nəfər tələbə təhsil alır. Bu ixtisasların hər birinə uyğun bütün zəruri avadanlıqlarla təchiz olunmuş, fənn kabinələri təşkil olunmuşdur. Kollecdə semestr imtahanlarının şəffaf keçirilməsi üçün pedaqoji kollektivin, ictimaiyyət nümayəndələrinin, eləcə də tələbələrdən ibarət komissiya yaradılır. Neqativ hal baş verərsə dərhal lazımi tədbirlər həyata keçirilir. Belə olan halda kollecdə təhsilin keyfiyyəti kifayət qədər yüksəlir. Qeyd etmək lazımdır ki, kabinələrin avadanlıqlarla təchizatı Təhsil Nazirliyi tərəfindən həyata keçirilmişdir. Kollecin 3 nəfər məzunu ali təhsil almaq üçün universitetlərə qəbul olmuşlar. Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecində hərbi-vətənpərvərlik mövzusunda cürbəcür tədbirlər həyata keçirilir. Bununla yanaşı, əlamətdar günlər xüsusi təmtəraqla qeyd olunur. Dekabr ayının 15-də Azərbaycan elminə böyük töhfələr vermiş akademik Həsən Əliyevin 110 illik yubileyi keçirilmişdir. Xalqımızın qan yaddaşına həkk olunmuş "20 Yanvar" və "Xocalı faciəsi" ilə bağlı kollecin tələbələrinin hazırladığı əbədi-bədii kompozisiyalar və başqa tədbirlər keçirilir. Bundan başqa, Azərbaycanın görkəmli şair və yazıçılarının



yubileylərinin keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Azərbaycan ədəbiyyatında xüsusi yeri olan Mir Cəlal Paşayevin 110 illik yubileyi keçirilmişdir. 10 may tarixində kollecdə "Ulu öndərin Azərbaycan təbiətinə qayğısı hər birimiz üçün ən gözəl nümunədir" adlı müsabiqə keçirilmişdir. 28 May Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının yüz illiyi ilə bağlı keçirilən tədbir daha yaddaqalan oldu. Bunlarla yanaşı, vətənimizin bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin anım mərasimləri keçirilir, onların qəbirüstü abidələri ziyarət edilərək, əziz xatirələri yad olunur. Qeyd etmək lazımdır ki, tədbirlərdə fərqlənən tələbələr kollecin rəhbərliyi tərəfindən tərifnamə və digər hədiyyələrlə təltif olunurlar. Kollecin məzunlarının işlə təminatı da ürəkaçandır. Məzunlar əsasən Kənd Təsərrüfatı İdarəsində, Qarabağ Aqrar Sənaye Kompleksində, Azərbaycan Respublikası İstehsalat MMC "İMKT" Bərdə filialında, Dövlət Sosial Müdafiə Fondunun Bərdə filialında, Bərdə polis şöbəsində, Bərdə İcra Probasiya Şöbəsində, Bərdə Mərkəzi Poçt İdarəsində və başqa yerlərdə daimi işlə təmin olunurlar.

Xaləddin Ələkbərov bildirdi ki, yeni dərs ilinin başlanmasına az müddət qalmasına baxmayaraq, aparılan məqsədyönlü tədbirlər nəticəsində rəhbərlik etdiyi təhsil müəssisəsi yeni tədris ilinə tam hazırdır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Əsas vəzifə bol məhsulu vaxtında, itkisiz toplamaqdır

## *Saatlı rayonundakı "Agro-Az" MMC pambıq yığımına start verib*

Saatlı rayonundakı "Agro-Az" MMC adlanan pambıq emalı zavodu "ağ qızıl" istehsalının arxa plana keçdiyi vaxtlarda da öz işini dayandırmadı. Zavodun təsisçisi, respublikada təcrübəli pambıqçı mütəxəssis kimi tanınan Vahid Hüseynov bu qiymətli məhsulun istehsalına yenidən başlanacağını bilirdi. Belə də oldu. Dövlət başçımız cənab İlham Əliyevin təşəbbüsü ilə ölkədə aqrar sahənin, onun vacib qolu olan pambıqçılığın inkişafı prioritet məsələyə çevrildi. Ölkə rəhbərinin qərar və göstərişlərindən ruhlanan "Agro-Az" MMC-nin kollektivi fəaliyyət dairəsini genişləndirdi, öz zəngin təcrübəsi sayəsində qiymətli məhsulun istehsalını ilbəil artırdı. Fermerlər arasında nüfuz sahibi oldu, nəinki Saatlıda, hətta ətraf rayonlarda əsl təcrübə məktəbinə çevrildi. Halal zəhmət, dəyərli mütəxəssis təcrübəsi yüksək qiymətləndirilir. Əldə olunan nailiyyətlərə görə Vahid Hüseynov dövlət başçımızın sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldü. "Agro-Az" MMC yeni yığım mövsümünü tarlaların bol məhsulu ilə qarşılayır. **Zavodun təsisçisi Vahid Hüseynov** bol məhsulun yığımına fermerlərin mütəşəkkilliklə başladıqlarını dedi:

- Əvvəlcə, onu deyim ki, istehsal edib dünya bazarlarına çıxardığımız məhsulun satışından dövlətimizin büdcəsinə keçən il 4 milyon 226 min dollar vəsait daxil oldu. Təkcə bu fakt ölkə Prezidenti cənab İlham Əliyevin iqtisadiyyatımızın inkişafına göstərdiyi düzgün istiqamətin bariz nümunəsidir. Əlbəttə, getdiyin yol işıqlı, uğrunda çalışdığın məqsəd aydın olanda, sonsuz həvəslə, deyərdim ki, iki-üç qat ruh yüksəkliyi ilə işləyirsən. Bunun nəticəsidir ki, təsisçisi olduğum zavod pambıq istehsalını ildən-ilə genişləndirir. Bu il 4400 hektar sahədə pambıq əkmiş, 1150 nəfər fermerlə müqavilə bağlamışıq. Məhsulun becərilməsi, bütün aqrotexniki tələblərə əməl olunması daim MMC-nin diqqət mərkəzindədir. Bu məqsədlə fermerlərə avans olaraq bugünkü günə kimi 2 milyon 486 min manat nağd pul vermişik. Sahələrdə bol məhsul var. Yığıma mütəşəkkil hazırlaşmışıq. Zavod və məntəqələr məhsulun qəbuluna tam hazır vəziyyətdədir. Pambığın sahələrdən daşınması, işçilərə nəqliyyat xidməti göstərilməsi üçün 35 nəqliyyat traktoru, 50 qoşqu, 2 pambıq yükləyicisi, 2 "Kamaz" yük maşını fermerlərin ixtiyarındadır. Məhsulun yarısını Amerika istehsalı olan 6 ədəd pambıqyığan maşınla toplamağı nəzərdə tutmuşuq. Ayrı-ayrı briqadalar əllə məhsul yığan işçiləri yığıma cəlb edib.

Yeni mövsümdə əlverişli hava şəraiti tarlalarda bol məhsul yetişdirməyə imkan yaratdı. Bu il hektardan 20-25 sentner məhsul gözləyirik. Onu da deyim ki, pambıqçılığın inkişafına göstərilən qayğı və diqqət keçmişdən bu qiymətli bitkinin əkilib becərilməsi ilə məşğul olan insanlara iş yeri tapmaqda yeni meydan açdı. Təkcə bizim zavodda hazırda 140 nəfər Saatlı sakini daimi işlə təmin olunub. Yığım dövründə isə daha 100 nəfər mövsümi işə cəlb ediləcək.

Artıq "ağ qızıl" toplanışına start verilib. Hava şəraiti imkan yaratsa, məhsulu tez, itkisiz yığmaq əzmindəyik.

**Hazırladı:**
**Tofiq HÜSEYN,**
**"Respublika".**

# Məktəblər yeni dərs ilinə hazırdır

**Yeni dərs ilinin başlamasına az qalıb. Məktəblərin sükutu yenidən pozulub. Sinif otaqlarında, fənn kabinetlərində, idman zallarında, dəhlizlərdə təmir işləri gedir, dərsliklər məktəbə daşınır və sairə. Müəllimlər də məzuniyyətdən yenicə qayıdıb. Onlar yeni dərs ilinin iş planları ilə məşğuldurlar. Müəllimlər arasında dərs bölgüsü də başa çatmaq üzrədir.**

Bu günlər Qusar rayonunun ümumtəhsil məktəblərində də yeni dərs ilinə ciddi hazırlıq görülür. Tədris ili ərəfəsində T.İsmayılov adına şəhər 6 saylı tam orta məktəbi və Balaqusar kənd tam orta məktəblərində olduq. Bu tədris ocaqlarında gedən hazırlıq işlərini yerindəcə izlədik.

Şəhərin gəzməli, görməli yerində yaşıllıqlar arasında ucalan 6 saylı tam orta məktəbi elə xarici görünüşü və səliqə-sahmanı ilə diqqəti cəlb edir. Burada sinif otaqları, dəhlizlər, idman zalı, bir sözlə, binanın hər tərəfi təmiz, sər-səliqəsi ilə göz oxşayır. Sinif otaqlarının döşəmələri, demək olar ki, yenidən rənglənib. **Məktəbin direktoru Naira Kliçova** təmir olunmuş sinif otaqlarını həvəslə bizə göstərərək bütünlükdə məktəbin cari təmir olunduğunu göstərdi. Yeri gəlmişkən qeyd edək ki, Naira xanım həm də təhsil öncülüdür. Pedaqoji fəaliyyətinə görə o, ölkə Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür. Direktor deyir ki, məktəbimiz 2007-ci ildə əsaslı təmir olunmuşdur. Ötən illər ərzində hər il cari təmir işləri apararaq məktəbi bu vəziyyətdə qoruyub saxlamışıq. Bu il də gördüyünüz kimi, məktəbdə xeyli təmir işləri aparmışıq.

Naira müəllimə onu da qeyd etdi ki, 2018-2019-cu dərs ilində məktəbdə 1000 nəfərə yaxın şagird təhsil alacaq, onların təlim-tərbiyəsi ilə 88 nəfər pedaqoq məşğul olacaqdır. Məktəbin pedaqoji kollektivi ixtisaslı, təcrübəli müəllimlərdən ibarətdir. Artıq müəllimlər arasında dərs bölgüsü də aparmışıq. Yeni dərs ilində birinci sinifdə 90 nəfər oxuyacaqdır. Dərsliklərin məktəbə gətirilməsini də təmin etmişik. Bu sahədə heç bir çətinliyimiz yoxdur. Məktəbimiz yeni dərs ilinə indidən tam hazırdır.

Balaqusar tam orta məktəbi rayonun nümunəvi ümumtəhsil müəssisəsidir. Məktəb binası 2007-ci ildə inşa olunmuş, burada təhsilin yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılmışdır. Məktəbdəyik. Sinif otaqlarında və dəhlizlərdə rəngləmə işləri gedir. **Məktəbin direktoru Babacan Zəkiyev** ilə elə burada - iş başında görüşdük. O bildirdi ki, yeni dərs ilinə çox ciddi hazırlaşırıq. İdman zalını, bütün sinif otaqlarını təmir etmişik.



İkimərtəbəli, yaraşıqlı məktəb binasının ətrafında da xeyli iş görülüb. Burada su çəni təmir olunub. Yaşıllıqlara qulluq göstərilib. Məktəbin tərtibat işlərinə də xüsusi diqqət yetirilib. Babacan müəllim bildirdi ki, yeni dərs ilində məktəbdə 204 şagird təhsil alacaqdır. Tədrislə məşğul olacaq kifayət qədər ixtisaslı müəllimlərimiz var. Məktəbin pedaqoji kollektivi yeni dərs ilində də ancaq keyfiyyətli tədris uğrunda çalışacaqdır. Onu da qeyd edim ki, məktəbin uğurları artmaqdadır. Builki göstəricilərimiz daha yüksək olub. Orta məktəbi bitirən 26 məzundan 11 nəfəri ali və orta ixtisas məktəblərinə, o cümlədən 8 nəfər ali məktəbə, 3 nəfər orta ixtisas məktəbinə daxil olmuşdur.

**Rayon təhsil şöbəsinin müdiri Niftəli Fərzəliyev** məktəb binalarının vəziyyəti, yeni tikilən məktəblər haqqında məlumat verərək bildirdi ki, yeni dərs ilində rayonumuzda 86 ümumtəhsil məktəbi, o cümlədən 48 tam orta, 20 ümumi orta, 18 ibtidai, 2 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərəcəkdir. Rayonda fəaliyyət göstərən məktəblərin 45-i təzə binalarda, 41-i isə köhnə binalarda yerləşir. Yeni həyat, Zindanmuruq qışlaq kəndlərində modul tipli məktəblərin inşası davam edir. Kuzun qışlaq, Ləcət, Cibir, Qarat oba kənd tam orta məktəbləri üçün yeni binaların tikintisinə, Yasab, Şirvanlı, Quxur oba kənd tam orta məktəblərinin isə əsaslı təmirə, 20-dən çox məktəbin isə cari təmirə ehtiyacı vardır. 23 məktəbdə qazanxanalar qaz yanacağı, 21 məktəbdə dizel yanacağı, 2 məktəbdə elektrik enerjisi ilə işləyir. Qalan 40 məktəb isə odun yanacağı ilə qızdırılır. Bəzi məktəblərin yerləşdiyi kəndlərdə artıq qaz xətləri çəkilmiş, həmin kəndlərdə köhnə isitmə sobalarının qaz sobaları ilə dəyişdirilməsinə ehtiyac vardır. Müəyyən çətinliklərə baxmayaraq, bəzi məktəblərimizdə daxili imkanlar hesabına cari təmir işləri aparılmışdır və bu işlər davam edir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

